*SƏMƏD MƏNSUR*

# BİRİNİN BAYRAMI, BİRİNİN MATƏMİ

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 14 fevral 2003-cü il tarixli 2 №-li iclasının qərarı ilə nəşr edilir.


*Toplayanı və tərtib edəni*

**Əliabbas MÜZNİB**

*Mətni transfoneliterasiya edib*
*nəşrə hazırlayanlar və ön sözün müəllifləri*

**Sona XƏYAL HADIYEVA,**
**Mustafa MAİLOĞLU ƏLİYEV**

*Redaktoru*

**Məmməd ADİLOV**




Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Səməd Mənsur. Birinin bayramı, birinin matəmi, Bakı, Nurlan, 2003, 69 s.**

## ÖN SÖZ

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Bakı ədəbi mühitində yaşayıb-yaratmış şairlərin də ədəbi irsi qorunub saxlanılır. İllərlə arxivlərdə toxunulmaz qalan bu irsin üzə çıxarılması və oxuculara çatdırılması üçün bu şairlərin əsərlərinin çapa hazırlanması institutun dövlət planına daxil edilmişdir. İnstitutumuzda Əliabbas Müznibin arxivində elə şairlərin əsərləri vardır ki, onlar XIX əsrdə doğulsalar da, şair kimi yetişib şöhrət tapmaları XX əsrə aiddir. Bunlardan biri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

də Səməd Mənsurdur. Müznibin fond 23, s/v.39 şifri altında saxlanılan 21x15 sm ölçülü kağızda qara karandaşla yazdığı kiçik mətndə şair haqqında qısa məlumat verilmişdir.

“Asi, Katib, Əbülhəsən Vaqif, Səməd Mənsur: bu dörd şair 19-nci əsrin ortalarında klassik ədəbiyyat sahəsində çalışanlardır. O zəmanın müəyyən şairlər cəmiyyətlərində iştirak etmişlərdir. Asi Şuşada, “Fəramuşan”, Katib “Məclisi-üns” və Vaqif Bakıdə “Məcməüş-şüəra”nın üzvlərindən, Səməd Mənsur isə bunların ardınca gələrək, nəhayət, məhəlli mətbuatda iştirak etməgə də müvəffəq olmuşdur. Bilxassə, bu şairlər 19-nci əsrdə ədəbi irs buraxan şairlərin dəgərlilərindən sayılır. ***Ə.Müznib***”.

Buradan məlum olur ki, Səməd Mənsur artıq on beş yaşında şair kimi tanınmışdı.

Əlyazmalar İnstitutunda Səməd Mənsurun xeyli əsəri saxlanılır:

Fraqment-835: Qəzetlərdə çap olunan qəzəl, təxmis və s. Latın əlifbasında. Müznibin xəttinə oxşayır. 36 makina vərəğində bənövşəyi mürəkkəblə yazılmışdır.

Fraqment-284: Səməd Mənsurun şerləri. 149 pərakəndə vərəq həcmində. Qara mürəkkəblə, qara və bənövşəyi karandaşla yazılmışdır. Vərəqlərin ölçüsü müxtəlifdir. Bəziləri didilmiş, cırılmışdır.

Fraqment-293: Səməd Mənsurun əsərləri. 126 vərəq həcmindədir.

B-3552-də isə şairin üç şagird dəftərində avtoqrafları vardır.

S-348 şifri altında saxlanılan qovluqda Səməd Mənsurun Müznibin xətti ilə yazılmış əsərləri, haqqında məlumat vardır. Əlyazma boz cildə tutulmuşdur. Burada şairin XX əsrin əv-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vəllərində dövri mətbuatda çap olunan şerləri toplanmışdır. Materialdan görünür ki, tədqiqatçı bu şerləri Səməd Mənsurun kitabını çap etdirmək üçün toplamış, kitaba ön söz də yazmışdır. Əliabbas Müznibin bir çox şairlərin şer kitablarını çap etdirdiyi məlumdur. Lakin 30-cu illər repressiyası, digər işlər kimi, Müznibin tədqiqatlarını da yarımçıq qoymuş və Səməd Mənsurun kitabı işıq üzü görməmişdi.

Sovet dövründə Səməd Mənsurun əsərləri oxuculara ilk əvvəl “Deyilən söz yadigardır” və “Azərbaycan qəzəlləri” toplularından məlum olmuşdur. Sonralar isə xalq yazıçısı Anar şairin “Həpsi rəngdir” adlı şerlər kitabını çap etdirmişdir. F.e.d. Nazif Ələkbərov S.Mənsur haqqında "Bir ömrün rəngləri" adlı monoqrafiya yazmışdır. AMEA Ədəbiyyat İnstitutunun əməkdaşları da şairin əsərlərini toplayıb çap etdirmək istəmişlər, lakin hələ də kitab işıq üzü görməmişdir.

Oxucuların sərəncamına verilən bu kitab Müznibin S-348 şifrəli əlyazması əsasında hazırlanmış və onun tərtibatında olduğu kimi transfoneliterasiya edilmişdir.

S.Mənsur haqqında yuxarıda adını çəkdiyimiz kitablarda məlumat olduğunu və Ə.Müznibin topladığı materiala ön söz yazdığını nəzərə alıb əlavə geniş ön sözə ehtiyac görmədik.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Səməd Mənsur

*(1885-1927)*

Səməd Mənsur Hacı Əhməd oğli Bakúdə doğulub. Farscanı mollaxanada, türkcəni, ruscanı şəhər məktəbində öyrənmişdir. Təb'i-şerə malik olduğundan gənc ikən sair şairlərə qoşularaq qəzəl yazmağa başlamışdır. Lakin qəzəllərinin bütün üsul-üslubunda Ağakərim Salik təsiri üstün olduğu aydın surətdə görünür. Hətta onun Salikin şagirdi olması tam mənasilə hökm edilir.

Səməd Mənsur yalnız qəzəl yazmaqda qalmamış, 1914-də ustadən mətbuatda iştirak etmiş, "İqbal", "Bəsirət" qəzetlərində ciddi mənzumələr, "Tuti" məcmuəsində satiralar yazaraq, mollalar və qoçularla mübarizə etmişdir. Məarifin inkişafı uğrunda mümkün qədər də mənzumələr nəşr etmişdir.

1919-da "Şeypur" adlı gülgü məcmuəsinin naşirliyini qəbul edib nəşr etmişdir. Səməd Mənsur "Şeypur"un naşiri olsa da, bütün yazılarının da nəşrini özi öhdəsinə almışdır. Həmin zəmanədə "Himmət" firqəsinin orqanı olan "Azərbaycan füqərası" qəzetəsində kapitalist və burjuylara qarşı ciddi nəzmlər yazmışdır.

Aprel inqilabından sonra şura illərində qulluq etdiyi "Molla Nəsrəddin" məcmuəsində satiralar yazmışdır. Lakin satiraları nə qədər Sabirə təqlid edərək yazmışsa da, fəqət Sabir qədər müvəffəq ola bilməmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bununla bərabər, satiraları tənqidi cəhətindən qüvvətlidir. Sabirdən başqa, bütün müasir şairlərlə bərabərlik edəcək dərəcədə qüvvətli olması mənzumələrindən bəllidir.

Səməd Mənsur yalnız şerlə məşğul olmamış, teatro səhnəsində də çalışmışdır. Osmanlıcadan "Bəsa əhdə vəfa", "Gaveyi-ahəngər" pyeslərini azərbaycancaya çevirdiyi kibi, özi də səhnədə iştirak edüb, müxtəlif rollarda oynamışdır.

Səməd Mənsur istedadda simalar Azərbaycanda degil, başqa yerlərdə də nadir yetişə bilür.

Şairlikdən [başqa], yaxşı musiqişünas, tarçalan və oxuyan idi. Həmin zəmanda buxqalterligi mükəmməl surətdə bacarırdı. Səhnədə iştirak etməgə qabiliyyəti vardı. Nə çarə ki, çox vəqtsiz tərki-həyat etdi.

***Ə.MÜZNİB***



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## TAZİYANƏ

*Rusiyada müsəlmanlıq firqəsi üzvlərindən*
*birinə mart hadisəsi münasibətilə*

To ani ki, qofti ki,  ruyintənəm,
Bülənd asiman bər zəmini əfkənəm.
Bakı yandı, millət qırıldı,
Niyə yatmısan bəs, durub gəlsənəm.
Və şayəd İranda sənə xoş keçir,
Tapubsan orada gözəl bir sənəm.
Heyhat,
Digər to məqu mən… mənü mən mənəm.

*1918*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## VAHİDƏ İTHAF

Dünən bir şe’r yazdım mən dili-əfkar,
Özüm son şe’rə baxdım, etdim iqrar.
Dedim, xəlvətə ver xali zi əğyar,
Əbəs sözdür, deyib, bir mərdi-huşyar,
“Ağaclar qovzayanda baş çəməndə,
Söyüd söylər o dəmdə: mən də, mən də”.

Mənə səd afərin, mən şairəm imiş,
Nə indi piş əzin mən şairəm imiş,
Sözümdür dilnişin mən şairəm imiş,
Əbəs sözdür, deyib, bir mərdi-huşyar,
“Ağaclar qovzayanda baş çəməndə,
Söyüd söylər o dəmdə: mən də, mən də”.

Əzəldən sahibi-zövqi-səliməm,
Qəzayə razıyam, nərməm, rəhiməm,
Kim oldu, mehribanam, çox həliməm,
Əbəs sözdür, deyib, bir mərdi-hüşyar,
“Ağaclar qovzayanda baş çəməndə,
Söyüd söylər o dəmdə: mən də, mən də”.
Adım, pəh-pəh, olub aləmdə məşhur,
Özümdən olmayıb bir kimsə mənfur,
Gəlir hər an dilə bu beyti-məzbur,
Əbəs sözdür, deyib, bir mərdi-huşyar,
“Ağaclar qovzayanda baş çəməndə,
Söyüd söylər o dəmdə: mən də, mən də”.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*1916*

## QƏZƏL

Tiri-qəmzən dili-zarımla tutub ünsü əlayiq,
Əksi-hikmətdir ol şey ki, ola eşqə müvafiq.

Çeşmi-məstin sevərək mərdüminə oldu müqəllid,
Əqli-nabalığımız kəsb edə ta rəmzi-dəqayiq.

Dili-üşşaqi ki, sədparə qılar tiği-məlamət,
Parələr nuri əcəbdirmi ola göylərə fayiq.

Mərəzi-eşqə müalic olu qabilmi təbabət,
Qeyri-eşqin hədəfi olmağa gər sinədü şayiq.

Tərki-tən qıl, olasan kişvəri-dildarə mühacir,
Şəm'ü pərvanə hədisin oxu, ey aşiqi-sadiq.

Qabil olmazdı məhim can verə əmvata Məsiha,
Verməsəydi ləbin e'cazi belə əmrə rizaliq.

Bizə hicran odu, əğyarə vüsal olsa da qismət,
Min təşəkkür ki, bu müştaq olub cövrinə layiq.

*1909*

## HƏPSİ RƏNGDİR



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Uyma, ey dil, xəlqdə yoxdur sədaqət, rəngdir,
Məscidü meyxanə rəng, eyşü ibadət rəngdir,
Mey riya, mə’şuqə qəş, hüsnü vəcahət rəngdir,
Rəngdir hər dürlü matəm, hər məsərrət rəngdir,
Anla, ey əbnayi-xilqət, cümlə xilqət rəngdir.

Görmədim bir zəri-xalis buteyi-nasutdə,
Mə’nəvi min ləkkə gördüm lə’ldə, yaqutdə,
Biqərəz insan olur görmək fəqət tabutdə,
Bilməzəm, varmı sədaqət aləmi-lahutdə,
Azma fikrim, cümlə e’cazü kəramət rəngdir.

Hər kəsin Cəbrili kəndi qəlbidir, vicdanıdır,
Var isə insafı şəxsin, dinidir, imanıdır,
Bədnəhad insanların öz nəfsi öz şeytanıdır,
Lövhi-qəlbi arifin ayatıdır, Qur’anıdır,
Mabəqi övhamdir şər’ü təriqət rəngdir.

Bir zaman vardı ki, mən həmfikr idim zöhhad ilə,
Sonra gördüm fərqi yoxmuş zahidin cəllad ilə,
Dedim, əyyaş olmalı, ta gün keçə mö’tad ilə,
Cümlə eyşü nuşi gördüm müxtəlif fəryad ilə,
Anladım kim, zöhdü təqva, eyşü işrət rəngdir.

Qıl təsəvvür bir daha şairlərin xülyasını,
Aşiqi-zarın başında seyr qıl sevdasını,
Qəbri aç, göstər ona Şirinini, Leylasını,
Bir ayılsın da, düşünsün gördüyü rö’yasını,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

“Bax”, – deyər – “həqqa, bütün eyşü məhəbbət rəngdir”.

Tapmadım aləmdə bir həmdəm ki, olsun biriya,
Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,
Külli-əbnayi-bəşər öz nəfsinə olmuş fəda,
Nəfsi uğrunda görərsə hər bəla, hər macəra,
Məsləkə isnad edər, məslək, dəyanət rəngdir.

Bilmədim neyçünmüş aləm bunca da yəsü ələm,
Zövrəqi-ömrün mühiti vərtəban dəryayi-qəm,
Böylə halda kimsədən bihudədir ummaq kərəm,
Hər gələn bulmaq dilər öz nəfsinə asudə dəm,
Arxalanmam kimsəyə, ülfət, rəfaqət rəngdir.
İmdi ki, mümkün deyil aləmdə olmaq kamyab,
Ey gözün qurbanı, saqi, ver yenə sağər şərab,
Ver yenə sağər şərab, ey saqiyi-alicənab,
Bəlkə, badənlə edə Mənsuri rahət iktisab,
Yoxsa, bu aləmdə yoxdur istirahət, rəngdir.

*1926*

## SÖZ

Bir sədəfdir qəlbi-danişvər, düri-şəhvar söz,
Əqldir xurşidi-rəxşan, pərtövi-ənvar söz.

Sözdürür zi nəfs üçün əsbabi-sülh, alati-cəng,
Qəlbi-məcruhun şəfası, tiği-cövhərdar söz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rəhməti-xəllaqə nail söz qananlardır fəqət,
Əql olan başlardu cənnət, təhtəl-ənhar söz.

Natiq öz nitqində izhar eyləyər idrakını,
Çünki hüsnü qəbh təşxisindədir me'yar söz.

Sözlə aləm tapdı xilqət, sözlə qeyb oldu şühud,
Cümlə əsrari-nihanı eylədi izhar söz.

Aləmi-lahutdən Cəbril tək eylər nüzul,
Səm'i-nasuti qılar hər ləhzə bərxurdar söz.

Bu düri-pürqiymət halilə iste'mal qıl,
Ta kəsafətli qərəzlə olmaya murdar söz.

Söz fünununda məharətsiz gərək etsin sükut,
Həm müxərrəbdir könül mülkünə, həm me'mar söz.

Söz eşit, Mənsur, ta təkmil edə idrakını,
Zərreyi-xaki qılar əlmasi-qiymətdar söz.

*1913*

**"ŞAHNAMƏ"DƏN**

Teleğraf oldu bütün Avropaya, ölkəyə car
Ki, bu günlərdə olur şah Rza tacgüzar.

Sevinir, həpsi sevir taci, yəqindir, sevəcək,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki sevdirmiş əzəldən onu nəsli-Qacar.

Bəzmlər çidələnib, şəm'i-şəbistan yaxılıb,
Nəhr tək cari olub abi-limu, abi-ənar.

Hamı çaylar sevinir, cümlə ağaclar sevinir,
Bir tərəf tac günü, o biri tərəf fəsli-bahar.

Sanma yalnız sevinən molladı, dərviş, ə'yan,
Siğədən vaz keçəcəklər hamı zahid ağalar.

Az zamandan sora tiryəkxanalar bağlanacaq,
Taci-Qacar olacaq çünki səri-şahə süvar.

Doğrudur şe'rlərim, sanma zərafət edirəm,
Vazeh olmaz, a gözüm, hər kəs üçün bu əsrar.

Anlamaz kimsə onu, çünki o İran işidir,
Satmayan dinini dünyayə müsəlman işidir.

Toxunub bir-birinə indi sərasər İran,
Şahlıq tacı qoyur başına çünki Rza xan.

Sevinir cümlə xəvanin, sevinir müctəhidin,
Sevinir sahibi-sərvət, sevinir "anqliçan".

Darayır tellərini indi bütün mütrübələr,
Rəngləyir saqqalını cümlə seyid, mərsiyəxan.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yenə “Rüstəm baz” alıb ləngəri ip üstə çıxar,
Əllərinə götürüb “Ruhi-nəfiri” dərvişan.

Beçə dərviş vurur at yağı birçəklərinə,
Qaş yaxır, sürmə çəkir gözlərinə qönçədəhan.
Lotular saz eləyib dünbəyini, meymununu,
“Margir” əldə edib bəzm üçün on səkkiz ilan.

Qoca tiryəkçi silib parlaq edir hoqqaları,
Çünki bayram günü tiryək çəkəcəkdir ə’yan.

Bəs ki, bunlar hamı İranda nümayiş yapacaq,
Padşahdan hamı bəxşiş alacaq pirü cavan.

“Şirü xurşid” medalı qayrılıb anbar-anbar,
Tirmə, firuzə, flan qayrılıb ovdan-ovdan.

Bəs o yaz, qış çürüdən cismini palçıqlarda,
Ac qalan, əyni yalın, surti məhzun dehqan.

Bəs o qürbətdə fəlakətdə qalan hamballar,
O əzilmiş qocalar, yaymaya həsrət tiflan.

Bəs o illər uzunu görməyən asudəliyi,
Beş balıq tutmaq üçün çayda-çamurda çalışan.

Anlamaz kimsə onu, çünki o İran işidir,
Satmayan dinini dünyayə müsəlman işidir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## İRANDA MƏCLİS SEÇKİSİ

Söz İranda gərək məclisi-ə'yan seçilə,
Müctəhidlər seçilə, bəy seçilə, xan seçilə.
Çünki İran işinin xeyrini iranlı bilir,
Nə qanar mərdümi-dananın işin mən kimilər.
Mülkədar olmasa, İranda həyat olmayacaq,
Kəndlinin qarnın doyursa, bərəkat olmayacaq.
Buna söz yox ki, behişt əhlinə bəstər yaramaz,
Kişiyə dun yaramaz, arvada mə'cər yaramaz.
Əhli-cənnətdir İran kəndlisi ac, suz dolanar,
Əgər ə'yanə verər buğdanı, unsuz dolanar.
Çarvadarlıq peşəsi əsli müsəlman işidir,
Varsa hər yerdə dəmir yolları, şeytan işidir.

Nəyə lazım seçilib xəlq onu tə'mir eləsin,
Müctəhid qoy seçilib həpsini təkfir eləsin.
Vergi zalım işidir, həm də şəriətcə həram,
Əhli-din, əhli-şəriət verə bilməz, a balam.
Məclisə seçməli tacirləri, divan eləsin,
Müctəhidlərlə bərabər işi asan eləsin.
Xəlq əgər istər isə seçməyə ə'yanlarını,
Taciri, müctəhidi, bəylərini, xanlarını,
Hər yerin hakimi var, məclisi var, gündəsi var.
Kimi istərsə onu seçdirər hakim ağalar.
Söz İranda gərək məclisi-ə'yan seçilə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Müctəhidlər seçilə, bəy seçilə, xan seçilə.

*1926*

## ƏKSİ-ŞAHANƏ

*Almaniyaya Hindenburq üçün Rza şahın əksin gətirən heyət Berlin şəhərinə varid olmuşdur*

**(qəzetlərdən)**

## FİRDOVSİNİN “ŞAHNAMƏ”SİNDƏN

Müinül-məmalik, əminül-müluk,
Sipəhdari-ə’zəm, dəbirüs-süluk.
Kamandar, çalakü həm nizədar,
Hamı əsbi-tazilərə şəhsüvar,
Qabaqca qulaman zərrinkəmər,
Dalınca səvaran çün şiri-nər.
Nağarazənan ilə şeypur, cəng,
Edər nə’rəsi guşi-əflaki dəng.
Şəhin əksini pirəki-nigdan,
Tutub əldə çün bərqi-atəşfəşan.
“Keçin, yol verin, əksi-şahanədir,
O büt, qəlbi-İrani bütxanədir”.
Bu hey’ət, bu həşmət, bu girü bu dar
Nədir?
– Əksini həzrəti-şəhriyar



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu gün göndərir töhfə alman üçün,
Ürəklərdəki dərdə dərman üçün.
O əksin vürudilə almaniyan,
Çıxarlar əsarətdən asan həman.
Firəng, ingilislər, italyangili,
Düşünsün gərək ciddi bu müşkili.
Xəbər çatdı almana, Berlin tamam,
Yerindən qopub, mərdüm etdi qiyam.
Rəisan, ə’yanü xanan, bəyan,
Qabaqda böyük dəstə müzik çalan
Çıxıb pişvazə bütün əhli-din,
Gəlir əksi-sultani-İranzəmin.
Böyük bargah rəisül-bilad,
Açılmış, döşənmiş çü gahi-Qubad.
Gümüş manqal, altun maşa bir tərəf,
Çini hoqqalar çəkmiş asudə səf
Ki, ə’zayi-hey’ət be məhzi-vürud
Verə şövq ilə ta ki, tiryakə dud.
Ərəq şişələrdə, həşiş zərfdə,
Qənaət nə lazım, ola sərfdə,
Ləyən, aftava, canəmazi-hərir,
Nəmaz etməyə sonra ə’zayi-pir.
Şəha, tacidara, fələkrəf’əta!
Mələkxisləta vü qədri-qüdrəta!
Tutub şövkətin cümlə Avropanı,
Nə Avropanı, bəlkə, hər bir yanı.
Yaşa, ey şahənşəhi-İran, yaşa,
Fəqət qorxuram getməyə iş başa.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*1926*

## QƏLƏMİMƏ BƏNZƏTMƏ

Sinəm atəşgədə, bir parça şərərdir qələmim,
Mənbə'i-büxl ürəyim, aləti-şərdir qələmim.

Təkcə bir şairi-bivahiməvü pürhünərəm,
Min oxa, süngüyə, şəmşirə dəyərdir qələmim.

Kəndimi "xadimi-millət" – deyə öysəm yaraşar,
Rəhnümayi-rəhi-əbnayi-bəşərdir qələmim.

El bilir mən nəyəm, artıq nə üçün gizlədəyim,
Dərdsəri-ümmət üçün xəlqə zərərdir qələmim.

Söyüşüm ərsəsidir, səfhəsi məcmuələrin,
Əldə bir hərbeyi-xunrizi-düsərdir qələmim.

Cəhlin issiz, qaradonlu gecəsin bayquşuyam,
Çəkməyə hər tərəfə cismimi pərdir qələmim.

Zəhri-can, ruha əza, söylədiyim səfsətələr,
İntiqad oxlarına qarşı sipərdir qələmim.

Birlik, ülfət və məhəbbət telinin qayçısıyam,
Bixi-nəxli, əməli-qövmə bətərdir qələmim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təfriqə şəhri, nifaq ölkəsinin cütçüsüyəm,
Səpdiyi tüxmi-qərəz, büğzi-kədərdir qələmim.

Dəftərim zülməti-leyli-qüdəma şəbpərəsi,
Həm nəvisəndeyi-təhdidi-xətərdir qələmim.

Al, oxu şe'rimi, yansın ciyərin, eylə həsəd,
Söz deyil yazdığı ki, dürrü gühərdir qələmim.

Qoy gözü ağrısın, əş'arıma "pisdir" – deyənin,
Tökdüyü hər kəs üçün nuri-bəsərdir qələmim.
Hasili-şe'rimə pəh-pəh deyənin nokəriyəm,
Sıxdığı öylə ağızlara şəkərdir qələmim.

Əyrimə düz deməyən, kim olur olsun, vururam,
Bax ucu nizə kimi qan ilə tərdir qələmim.

Dəstəsi zərdir qələmim,
Xuni-ciyərdir qələmim.
Düşməz,
Düşmənə yutdurduğu şey
Acı bibərdir qələmim.

*1916*

## VAHİD RUSİYAYA İTHAF

Öylə viranədi Rusiyyə ki, abad olmaz,
Onu abad edən aləmdə bir ustad olmaz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu qədər xır-xır edirsən, a kişi, cəhrəmisən?
Eybdir, yırğalama korpusunu, nehrəmisən?
Yoxsa saldın özünü tazəcə bir təhrəmi sən?
Qarnını yırğalamaqla vətən abad olmaz,
Öylə viranədir əsla daha abad olmaz.

Bihəyasan, bilirəm, heyvərəsən, sırtıqsan,
Dadü fəryadçısan, bircə nəsən, yırtıqsan.
Köhnə rus advokatı, türk sözü, lap azitıqsan,
Vəli bu qalmaqalında ona imdad olmaz,
Öylə viranədi Rusiyyə ki, abad olmaz.

Çox igitsən, atını bir kərə Finlandiya çap,
Krıma eylə güzər, Litva ilə Polşanı tap,
Acığın şədd eləsə, get, bala, Ukraynanı yap,
Ad qoyarsan bu cahanda belə bir ad olmaz,
Leyk Rusiyyə daha bir kərə abad olmaz.

Sal əlindən qələmi, çək qəməni, eylə qiyam,
Get Sibir torpağına, qur orada nəzmü nizam,
Sonra gəl Don çayına, eylə Dağıstanə xuram,
Xəlq görsün də, desin, heç belə ustad olmaz.
Leyk Rusiyyə daha bir kərə abad olmaz.

Niyə dağlar gözünü tək bizim Azərbaycan?
Vahidin* aləmə salmış yenə fəryadü fəğan,
Rusların da daha lap zəhlələri getmiş, inan,

---

* Vahid Rusiya deməkdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dərdinə çarə qılan bir quru fəryad olmaz,
Quru fəryadilə Rusiyyə də abad olmaz.

*1918*

## GÜZGÜ

Hər kəs baxarsa güzgüyə, ancaq görər özün,
Əlbəttə, onda dürləyəcək əyrisin-düzün.

## FİRQƏLƏRƏ
## 1

Yenə də idareyi-məmləkəti, belə getsə ki, məddi-nəzərdədir,
Düzələr, demə, işimiz bizim, görünür ki, eyni-xətərdədir.

Yenə Zəngəzur ara ərməni kəsiyor da ümum cəmaəti,
Yenə düşmənin topu ev yıxır, yenə güllələr bu ciyərdədir.

Hələ də ayılmadı firqələr, bir olub da dəf' edə düşməni,
Biri portfel arayır fəqət, biri fikri-sim ilə zərdədir.

Biri bolşevik, biri menşevik, biri eser, ol biri bitərəf,
Nə bilim nələr, nə bilim nələr, nə bilim ki, iş bu nələrdədir.

Nə düzəldi fə'lələrin işi, çoxu lüt gəzir bu soyuq qışı,
Belə iş olarmı məgər, kişi, baxınız bular nə xəbərdədir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə var ehtikarə mübarizə, nə alındı qabağı bahalığın,
Necə fırtına, necə pis həva, su çıxıbdır, indi kəmərdədir.

*1920*

## 2

Nə qədər ki, firqələrin işi böylədir ki, bəd nəzərdədir,
Vətəni xilas məhaldır, vətən artıq indi xətərdədir.

Biri gündə bir neçə rəng alır göz önündə buqələmun kimi,
Dolanır gəda kimi hər zəman, bir gəh bu dər, biri gəh o dərdədir

Biri nerdən isə vəkil olub, bizi qeyrə satmağa qul kimi
Gecə-gündüz işləyir, hər zəman gözü leyk sim ilə zərdədir.

Biri bitərəf qoyub adını, özü milyonerlərə yar olub,
Nə məramı var, nə məqsədi, həmi zir, həm də zəbərdədir.

Yanır iştə bir neçə şəxslər, niyə tabe'i onların azalıb,
Bu səbəblə, heyf, iş aşmayır, hamı karübari-zərərdədir.

Biri keçmiş işləri birbəbir unudub da, böyləcə əyləşib,
Nə bu hal-hazıra baxmayır, nə bilim ki, fikri nələrdədir.

Çəkil aşiyani-vəhdətə, nə hökumətə, nə fəqirə bax,
Nə acından, iştə ölənlərə, nə əşki-dideyi-tərdədir.

Nə danış üqab, nə bax, nə bax bunu bil ki, qəzaləri acların,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə olursa olsun, həman-həman yenə xun, yenə xuni-ciyərdədir.

*1920*

## CAVAN DOKTORLARIQ

Doktorlarıq, etmədik həmiyyət,
Kəndli uzanıb çəkərsə zillət.

Lazım gəlir olaq məşahir,
Lövhə vurub eyləyək təfaxür.
Məqsudimiz həp bu olmuş axır,
Kabinetdə yatıb, olaq fərağət
Gəncik hələ, çəkmərik əziyyət.

Vardır nə ricu'miz qəzada,
Qızdırma tutar bizi orada.
Naxoşlar uzansa, gəlsə dada,
Biz getmərik, eyləmə məzəmmət,
Gəncik hələ çəkmərik əziyyət.

Bir növ gərək murada yetmək,
Beşmərtəbələrdə məskən etmək,
Şəhri buraxıb olarmı getmək?
Xoşdur bizə ac-susuz səyahət,
Tənqid eləmək bizi nə hacət.

Kəndlərdə var isə pul qazanmaq,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yox madmazelə dəyib-dolaşmaq,
Bulvarda gərək gəzib dolanmaq,
Pul olmasa da keçər, nəhayət,
Tənqid eləmək bizi nə hacət.

*1926*

## CAVAN HƏKİMLƏRİMİZƏ

*Şuralar ittifaqı şəhərlərində 10 min işsiz həkim vardır ki, bunlardan biri Bakı şəhəridir.*

Ey xatiri möhnətli, günü qarə həkimlər,
Bulvarda, bağda gəzən avarə həkimlər.

Vardır Bakıda bir neçə batəcrübə doxtur,
Onlarə gələn yardım üçün müştəri çoxdur,
Amma siz üçün bircə nəfər xəstə də yoxdur,
Həml eylə bunu, bəxti-nigunsarə həkimlər,
Ey xatiri möhnətli, günü qarə həkimlər.
Kəndlərdə edər xəstə yatan hər gecə fəryad,
Hər gün ana qoynunda ölür bir neçə övlad,
Gənc doxtur əgər istəsə də etməyə imdad,
Lakin necə yapsın bunu biçarə həkimlər,
El dərdü qəmindən ciyəri yarə həkimlər.

Getmiş, oxumuş zəhmət ilə elmi-təbabət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir intiligent oldu kişi eyni-ləyaqət.
Kəndlərdə sürünsünmü, yararmı bu qəbahət?
Yox orda nə bulvar, və nə məhparə, həkimlər,
Getmə, qalacaqsan bütün avarə, həkimlər.

Kəndli hara, doxtur hara, heç olmuş əzəldən,
Dərman alınar kənd həkimi Kəblə Bədəldən,
Ömrü qutaranda öləcək, qaçmaz əcəldən,
Allah aparırsa, ona nə çarə, həkimlər,
Lə'nət ola bu gərdişi-qəddarə, həkimlər.

Qalsın qulağında, a cəvan, türfə nəsihət,
Jurnal sözü boş lağlağıdır, eyləmə diqqət,
Sən intiligentsən, qulaq asma, yaşa, kef et,
Min heyf ki, keyf etməyə yox parə, həkimlər,
Pulsuzluq işi saldı yaman darə, həkimlər.

Ey xatiri-möhnətli, günü qarə həkimlər.

*1926*

## FÜZULİYƏ NƏZİRƏ*

**1**

Nə cibimdə parə, nə evdə çörək var, ey həkim,
Nəbzimi bihudə sıxma, çəkmə azar, ey həkim.

---

* Əlyazmada Füzuliyə nəzirədən qabaq gələn “Yaraşıqlı ceyranıma töhfə” şeri məzmununa görə zəmanəmizin ruhuna uyğun gəlmədiyi üçün bu nəşrdən çıxarılmışdır *(Redaktor)*.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ət yemək pəhrizini əmr etmə kim, bazardə
Hər qədr axtarsa ət, tapmaz xiridar, ey həkim.
İsti paltar gey, deyirsən, neyləyim, varım-yoxum
Bir cırıq başmaqdır, bir köhnə şalvar,  ey həkim.

Qəlbini sıxma, deyirsən, ac qalıbdır külfətim,
Olmuşam mən onların fikrilə bimar, ey həkim.

Satmısanmı, söylədin, yoxsa evin əşyasını,
Gəl bu pünhan sirri xəlqə etmə izhar, ey həkim.

Parə yox, ətfal çox, işdən də qovmuşlar məni,
Xəstə olduqdan bəri qaldım da bikar, ey həkim.

Həqqi-zəhmət istəyirsən, baxmayıb əhvalıma,
Əhli-vicdan böylə etməz, eylə iqrar, ey həkim.

Ölməz isə binəva, simurq da qalmaz yəqin,
Verməyə yoxdur pulum, olma diləfkar, ey həkim.

*1920*

**2**

Naxoşam, həm cibimdə qırx rublə pulum var, ey həkim,
Dərdimi təşxis qıl, gəl qavma zinhar, ey həkim.

Əhli-fəqrəm, ol səbəb on rublə əksikdir pulum,
Az da olsa, rəhm elə, al, etmə israr, ey həkim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

On manatçın eyləmək bimarını evdən kənar,
Söylə cayizmi sənə bir böylə rəftar, ey həkim.

Hansı bir millətdə doktor baxmaz öz fəqr əhlinə?
Qeyrə bax, gəl qeyrətə, həm eylə bir ar, ey həkim.

Bir qarın ətmək məni salmış əcəl cəngalına,
Fə'ləyəm, həm külfətim çox, həm də bimar, ey həkim.

Sən də bir gün həftədə millət yolunda ömrünü,
Nola sərf  etsən, deyildir heç də düşvar, ey həkim.
Qafi-vəhdətdə deyilsən, sən də lüt ənqa kimi,
Var bir varın ki, qorxma, daima var, ey həkim.

*1920*

## QAÇMAQ  GÜNÜDÜR

Top nə'rəsi, qurşun səsi, at kişnəməsindən
Göylər dağılır, evlər uçar ğülğüləsindən,
Türk ordusu boysa ki, onun nə'rə səsindən,
Aləm dağılır, vaz keç, hökumət həvəsindən,
Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

Derdim, nə Bakı, Dərbənd, Dağıstan sənin olsun,
Tiflis də sənin, Qars da sənin, Van sənin olsun.
"Hayrıq" olasan, cümlə hayastan sənin olsun,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Türk qoymadı əfsus bir avudan sənin olsun,
Qaçmaq günüdür, ingilis, osman gəliyor arş,
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

Ey vah, o gözəl nəş'əli xülya, o illər
Kim, can kimi bəslərdin onu sən neçə illər,
İndi tüpürürlər sənə hər yerdə hər illər,
Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

Bildik ki, əvaxirdə xətakar olacaqsan,
Arvad-uşağın qatili, borzar olacaqsan,
Sonra göyərib töylədə murdar olacaqsan,
Neyçün dedin, aləmlərə sərdar olacaqsan,
Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

Əvvəl Bakıya gəlcək, a kirvə, havalandın,
Xülyalara, rö'yalara əzbəs ki, inandın,
Hər yerdə soxuldun işə, qızdın, havalandın,
Top nə'rəsi lapdan eşitdikdə inandın,
Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

Bəs ki, burada olmadı qalmaq sənə məqdur,
Get Zəngəzura, Hində, o yerlərdə otur, dur,
Qəm çəkmə, maraq etmə, unutmaz səni "Şeypur",
Zira gələcək Hində qonaq ləşkəri-Mənsur,
Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.

*1918*

## SƏLYANDA BİZİM "AMEDEN" KOMİSARA

Səlyanda Axundzadə, a kəmisər bacı oğlu,
Kəmsərliyinə yoxdu bərabər, bacı oğlu.

Kənd əhli deyirlər səni çox incidib, ey vah,
Viran ola Səlyandakı kəndlər, bacı oğlu.

Kəmsər olan əşxasə ticarətmi yaraşmaz?
Kəmsər daha da yaxşısın eylər, bacı oğlu.

Kənd əhli keçənlərdə olub xanlara muzdur,
Neyçün olamaz kəmsərə nokər, bacı oğlu.

Növrəstə cəvanlarda gərək pul ola, yoxsa
Olmaqmı olar hər gecə qənbər, bacı oğlu.

Getdi Bakıdan Zeynalov işlər düzələn tək,
Pozdu palanı, nəqşəni yeksər, bacı oğlu.

Dəymib, görünür, burnuna tiryak iyi əsla,
Onlar nə bilir mey nədü, dilbər, bacı oğlu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər kəs ki, əlindən buraya yazdı şikayət,
Rəftar et onunla daha bədtər, bacı oğlu.
Keyf etməyə pul tap, nə qədər tazə cəvansan,
Səlyanda Axundzadə, a kəmsər bacı oğlu.

*1917*

## İRANLILAR MARŞI

İranlılarız, taleyi xoş, bəxtəvəriz biz,
Hiç işləməyib, müftə yeyib, düz gəzəriz biz,
Əfkari-siyasətdə nə çox pürhünəriz biz,
Dünya ola bir, həm belə qəflət sevəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Xilqətdə bizə fərq qoyub xaliqi-aləm,
Məhzuz olayım işrəti-eyş içrə dəmadəm,
Gər yüzlər ilə bizlərə zülm olsa fərahəm,
Gəcgərdən olub zillətə yorğan bəsəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Qüssə nə rəva etməyə, mollalarımız var,
Millət qəmini çəkməyə mollalarımız var,
Tehranda böyük məclisi-şuralarımız var,
Millət babası şahilə xuni-ciyəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Tuti ədəbiyyatına bir şairi-millət
Yazmışdı ki, yox bir nəfər iranlıda qeyrət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vurmuş, bura bax, gör nə yaman bizlərə töhmət,
Qeyrətdən, a qare, belə tir-tir əsəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Qeyrət dediyin şəhrə yel əsdi, tələf oldu,
Barani-metərtək tökülüb, yerdə kəf oldu,
Oldur səbəbi çoxlar ona bitərəf oldu,
Baxdıqca o mərhumə çox həsrət çəkəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Qeyrət neçə iranlıya çəm-xəmlə göz atdı,
Ənqa quşu tək qayib olub, yox, yerə batdı,
O varlığını əldə dəyər-dəyməzə satdı,
Getdi o məqamə kim, ona bixəbəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

*1917*

* * *

Dedi, dinmə, öyünmə, yahu! Yürəgimi dağlayırsan,
Kişi, heç utanmayırsan, bu nədir ki, bağlayırsan
Qola qırmızı nişan, nə deyim ol nişanə, yeznə.

Dedim, aşna, indi halın necədir? Dedi, görirsən
Ki, dalımda əlli put yük, belimə çəkiblər örkən,
Ona bir də baxdım, ey vah, onu gördim ağ eşən mən,
Kəsilib qulaği, burni, buləşübdü qanə yeznə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yenə baxdım, indi cütdür, birisi dişi, bir erkək,
Özimə dedim, bu cindir, bayaq itdi, indi eşşək,
Daban aldım evə sarı ta olarilə qalmayım tək,
Başına qəsəm, tüpürdüm iki yol dabanə, yeznə.

Yügürdüm ev sarı ta qutarım onun əlindən,
Görirəm ki, altı fə’lə yapışubdu saqqalindən,
Birinin, dedim, bu kimdir ki, vurubla peysərindən,
Verübən özimə cür'ət, yürüdüm o yanə, yeznə.

Görirəm, dayı qumarbaz neçə ildir oynayurdi,
Eləyirdi min-min hiylə, puli fə’lədən udurdi,
O qədər pul uddi, uddi ki, axırdə lap qudurdi
Ki, o, biclik ilə xəlqi yetirirdi canə, yeznə.

Demə, fə'lələr də gizlin yığılıb də kart basıblar,
Dayı ilə oynayıblar, cibini bütün kəsiblər,
Ayılıb dayı görüb ki, puluni udub kasıblar,
Neçə min də borcli qalmış qocaya-cavanə, yeznə.

Dedim, ay balam, yazıqdır, daha boşlayın yaxasın,
Dedilər, nə boşla? Hərgiz bu gərək çəkə cəzasın,
Şələ saqqalından asıb əzərik bunun qafasın,
Şələ söhbətin eşitcək, baxaram o yanə, yeznə.

Görürəm, bu zorba saqqal və bu fə'lələr tutan iş,
Demə, "Bozdar"ın kəsilmiş şələ quyruğuymiş,
Buni görcək anladım kim, nə ki görmüşəm yuxiymiş,
Yuxudan ayılcaq atdım əlimi kəmanə, yeznə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki atum bir ox səmayə fələkin sına qafası
Ki bu növ'i yeznənin də qaça qurtara yaxası,
Yenə yadə düşdü Şəddad, onun oxlə macərası,
Dedim, iş yamandu, dinmə ki, dönüb zəmanə, yeznə.

Məni lap bu qəm, bu qüssə götürübdü canə, yeznə,
Belə iş gələrdi hərgiz yürəgə, gümanə, yeznə
Ki, dönə qabanə yeznə,
Yügürə, dayanə yeznə,
Çıxa nərdivanə yeznə,
Yıxıla filanə yeznə.

*1917*

## YEZNƏ, YƏNİ NİKOLAY DAYI

Bilmirəm, yeznəmizin işləri yaş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə,

Fələki-ruyi-siyəh qıldı onu xanənişin,
Döndərüb dul qarıya, aldı əlindən hər işin,
O ki, top atəşinə tutmadı Məşhəd günəşin,
Gündən hürkən gözü kor köhnə xəfaş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Yoxsa məzlumlərin həqqini pamal elədi,
Vəqfü əmlakımızı kəndsinə mal elədi,
Ya ki məscidləri meyxanəyə timsal elədi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vedrələr quyruğuna, böyrinə daş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Sartı, qırğızları qırdırdımi, talan elədi,
Qars, Acar kəndlərin xak ilə yeksan elədi,
Atalar öldürüb ətfalını nalan elədi,
Oğlunun ağzı qara, gözləri yaş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Ağlama, şah balası, ağlama, ey cani-pedər!
Dəxi şah olmadın, ey vah, əməlin getdi hədər,
Aldı sərrişteyi-kari ələ hər gəldi-gedər,
Pedərin bilmədim axır "Dubalaş"* oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Qətli-am etdimi biçarə yəhudlərini,
Qırdımı övrəti, ətfalını, yeksər ərini,
Əzdimi həq danışan kimsələrin peysərini,
Ayaq altında özü indi lavaş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Gürcilər məmləkətin qəsb eləyib vermədimi?
Aldadıb aldığını yiyəsinə qaytarmədimi?
Ədlü insafi cəhan əhlinə göstərmədimi?
Bəs onun cani hədər, malı taraş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Gülşəni-bəxtin, a yeznə, nə səbəb soldu sənin,

---

* Yəni ameden



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Millətə yaxdığın odlar gözinə doldu sənin,
Lyaxoflar kibi cəlladların noldu sənin,
Yarü ənsarın hamı qaçdı, şabaş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Sən ki, namuslu, qeyrətli, nəcabətli kişi,
Övrətin əmqızı bir möminə, düzgün hər işi,
Bəs bu Tatyana qızın ömrünün əvvəl yemişi,
Niyə Rasputin ilə bağrı padaş oldu yenə,
Açılıb eybi bütün aləmə faş oldu yenə.

Ah, ey türreyi-tərrarına min can sədəqə,
Ey gözəl şah qızı, hüsnünə milyan sədəqə,
Öldü Rasputin, olum indi mən hər an sədəqə,
O gözəl türrələrin dolma-dolaş oldu yenə,
Atanın, validənin işləri yaş oldu yenə.

*1917*

## AZAD OLUB

Qaç oğlan, bizim millət azad olub,
Bizim millət azad olub, zad olub.

Hürriyyət nədir, çünki biz anlarıq,
Çətin işmişmi, indi sahmanlarıq,
Vurub çırparıq, döşlərik, yanlarıq,
Bu gün nabələdmiz də ustad olub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qaç oğlan, bizim millət azad olub.

Dəli at kibi qırmışıq noxtanı,
Hanı qurdavoy, qorxaq ondan, hanı?
Vurub tapdarıq arvadı, oğlanı,
Biz azadəyik, könlümüz şad olub,
Qaç oğlan, bizim millət azad olub.

Vurub yıxmaq, öldürmək adət bizə,
Ev açmaq, oğurluqdu sən'ət bizə,
Edərdi pristav əziyyət bizə,
Pristav qaçıb, polisə bərbad olub,
Qaç oğlan, bizim millət azad olub.

Ədavət, oğurluq çü canü tən əst,
Təfavüt nədir, ya mən əst, ya sən əst,
Qaranlıq küçə tində mən gizlən əst,
Səhər qoy desinlər, flan zad olub,
Qaç oğlan, bizim millət azad olub.

Sala bilməz idik əzəl hay-huy,
Bizi qorxudardı İvan, qurdovoy,
Məişət bizə indi bir toydi, toy,
Bu gün kor, keçəllər də cəllad olub,
Qaç oğlan, bizim millət azad olub.

Bayıldan qaçan köhnə dustaqlarıq,
Biz hürriyyət hörmətin saxlarıq,
Kimə yetsək, əlbəttə, şıllaqlarıq,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu şıllaq bizə köhnədən ad olub,
Qaç oğlan, bizim millət azad olub.

Kişidi əzəllər gözüm düşməni,
Gərək indi arvad da saysun məni,
Qıçından çəkəm arvadın çəkməni,
Qəyur oğlana düşmən arvad olub,
Qaç oğlan, bizim millət azad olub.

*1917*

## MİLLƏT XƏBƏRLƏRİ

### Dövlətliyə

Dövlətli, danırsan bu kibi həqqi nədən sən
Kim mə'şəri- insanə nə cansən və nə tənsən,
Axmış qan, əzilmiş bədəndən yapılan ol,
Dövlət denilən meyyitə qanlı kəfənsən.

### Qolçomaqlar, götür ver

Hər məscidü hər məhlədə seçki, yenə seçki,
Həm gülməli, həm türfə gəlir lap mənə seçki,
Pəs məhlələrin qolçomağı, başçısı yoxmu?
Başqa nə yığıncaq, nə götür-qoy və nə seçki.

### Kəndlilər, ayılmayın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kəndlilər, iranlı tək siz də bəyə dustağ olun,
Bəy desə sərsaq olun, bigöftgu sərsaq olun,
Xanü bəy, dövlətli bir yurdun bütün allahıdır,
Kim deyər k, siz gəlib iranlıdan qoçaq olun.

**Dər del daşt**

Milyuqofdan soruşdular ki, gədə,
Dardanil söhbəti nə söhbətdir?
Dedi: Bosfor gərək mənim olsun,
İki yüz il bu bizdə niyyətdir.

**Palanəş digərəst**

Dedilər, köhnə hökumət qanımızçün zəlidir,
"Ameden"dir birisi, şahzadələr sevməlidir,
İş dəyişdi, tazalandı bu böyük ne'mət isə,
Milyuqof fə'lə tərəfdarı? Bu çox gülməlidir.

**Minacat**

Barilaha! Biz Bakı əhlini gəh-gəh yad elə,
Qətlü qarətdən xilas et, hürr qıl, dilşad elə,
Qolçomaqdan qorxmayaq, əmmamədən vəhm etməyək,
Molla şərrindən, qoçi cəngindən al, azad elə.

**Dad yarımçıq əlindən**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu tərəf yarım qraxmal yetirübdü xəlqi canə,
O tərəf axundnümalər oturub çəkir zəbanə,
Birinin əlində təsbih, birinin əlində şanə,
Hərə öz ovundan ötrü oxunu qoyur kəmanə.

### Bulanıq suda

Sana qurban canım, ey telli ədibdən bir ədib,
Yenə yoldaşlara bax kim, yoli düz getmədilər,
Şe’ri şaircə sevərsən, dəxi var səndə nə eyb,
Səni cəm'iyyət neyçün, bala, sədr etmədilər.

### Təxəyyürat

Anlamam, ləfzi-"ədib"in yeni mə'nası da var,
Ya deyərlər onu sabiq kibi mümtazlərə,
Bəlkə, məşrutə deyə mən də müsavi oluram,
Ə.Hüseynzadələrə, Sə'diyi-Şirazlərə.

*1917*

## BU CÜM'ƏLƏRDƏN

Gəldim, ilahi, yeksər təngə bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

Derlərdi, bu bəladır, gördim inandım, Allah,
Hər həftə cümə, hər ay dörd cüm'ə yandım, Allah,
Avarə oldum işdən, düşdim, talandım, Allah,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə imiş xəsarət indi gördim də, qandım, Allah.
Gəldim, ilahi, təngə yeksər bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

Dövlət qazanmaq içün xəlqə dedim yalanı,
Gündüz-gecə çəkərdim aldatmağa palanı,
Beş-on şahi düzəltdim, əmma bu bəd bəlanı
Gör malımə daraşmış, salmış necə talanı,
Gəldim, ilahi, təngə yeksər bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

Məktəb uşağıyəmmi bağda qılam səyahət,
Qoy fə'lə-mə'lə qılsun hər cüm'ə istirahət,
Mən tacirəm, əfəndim, var məndə çox ləyaqət,
Tüccarə layiq olmaz tə'til tək həmaqət,
Gəldim, ilahi, təngə yeksər bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

Keçmiş zəman yalandan qaplarımı çəkərdim,
Lampanı yandırardım, qantarda əyləşərdim,
Nə canda qorxu vardı, nə bir yürəkdə dərdim,
Qulluqçu söz desəydi, milçək kibi əzərdim,

Gəldim, ilahi, təngə yeksər bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

İndi bizim nökərlər cümlə səfihü qanmaz,
İmanə bavər etməz, Qur'anına inanmaz,
Mövlud olarsa be'sət qantorda hiç dayanmaz,
Məndən də rüxsət almaz bu bihəya utanmaz,
Gəldim, ilahi, təngə yeksər bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zəhləm gedərdi, ey vah, dünyadə pirkeşikdən,
Zəncirimə müqəyyəd üftadə pirkeşikdən,
Yanmazmı canım indi azadə pirkeşikdən,
Hər cüm'ə gəlmərəmmi fəryadə pirkeşikdən,
Gəldim, ilahi, təngə yeksər bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

Çərlətdi, canım aldı telfonçi çirklibaldır,
Beş-üç söyüş deyərsəm, qalxır, gözin bərəldir,
Lap öylə bir "köpək"dir, burnun göyə ucaldır,
Öldür, gəbərt, ilahi, yerdən bu şərri qaldır.
Gəldim, Ilahi, yeksər təngə bu cüm'ələrdən,
Düşdi ticarətim lap ləngə bu cüm'ələrdən.

*1917*

## NİKOLAY DAYIYA

Aman, ey şahi-dövran Kolyacan, ey şahlar şahı,
Evimdə un azaldı, lap unutdum yaddan Allahı,
Həya bilməm, ədəb qanmam, uşaq tək ağlaram gahi,
Gəl, ey zilli-ilahi, ey mənim iqbalımın mahi,
Uruslar, gürcülər, saldatkalar hər tövr olur olsun,
Gəl əyləş təxtinə, əncaq müsəlman qarnı tez dolsun.

Əgərçi xarici erkəkləri də'vadə qurbandır,
Həmişə arvadı, övladı min qüssə ilə nalandır,
Evində yox düyi, yağ, un, soğan, kartof, lap üryandır,
Genə mən tək həyasızlıq edən yox, bunlar insandır,
Uruslar, gürcülər, soldatkalar hər tövr olur olsun,
Gəl əyləş təxtinə, əncaq müsəlman qarnı tez dolsun.
Evimdə cümlə ərzağı yığarsan, bircə il çatmaz,
Gecələr aclığın xofundan hərgiz gözlərim yatmaz,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu zalım dum bənə, bilməm, tay un neçün satmaz,
Niyə aləm bu zülmün şiddətindən bir kərə batmaz?
Uruslar, gürcülər, soldatkalar hər tövr olur olsun,
Gəl əyləş təxtinə, əncaq müsəlman qarnı tez dolsun.

Gəl, ey şahım, pənahım, qibləgahim, təxtinə tez gəl,
Bu zalımlar səni qovdı, edibləd işləri əngəl,
Bazarda gırdavoy yox, qəmçi yox, məxluq olub tənbəl,
Polisdə sillə yox, yumruq da yox, cəncəldü lap cəncəl,
Uruslar, gürcülər, soldatkalar hər tövr olur olsun,
Gəl əyləş təxtinə, əncaq müsəlman qarnı tez dolsun.

Mən hürriyyət sevərdim ki, evimdə buğda bulaşsın,
Çayım, qəndim çoxalsun, ta simavər qaynasın, daşsın,
Özüm azad olum, yə'ni qəbağım başdan aşsın,
Nəinki dolmasızlıqdan kiçilsün peysərim çaşsın,
Uruslar, gürcülər, soldatkalar hər tövr olur olsun,
Gəl əyləş təxtinə, əncaq müsəlman qarnı tez dolsun.

*1917*

## GƏL-GƏL, AY MÜŞTƏRİ, MƏSLƏK SATIRAM

Tuti, çünki işimiz düşdi belə,
Sən də bu işdə bir az qıl əcələ,
Yaz bu e'lanımızı bildir elə,
Neçə illər çalışıb yığdıq ələ,
İndi mən onları tək-tək satıram,
Gəl-gəl, ay müştəri, məslək satıram.

Əzəl aclıq məni məcbur elədi,
Şoğərib millətə muzdur elədi,
İndi pul gəldi də məxmur elədi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məni millətdən əcəb dur elədi,
O keçən məsləki, bişək, satıram,
Gəl-gəl, ay müştəri, məslək satıram.
Hərə öz nəf'inə tapmış yeni yol,
Satsiyaldır, federal, sağ ilə sol,
Mən də tapdım bu yoli, pul ilə bol,
Pul verən hər necə ollam desə, ol,
Gözimi pulliyə eynək satıram,
Gəl-gəl, ay müştəri, məslək satıram.

İndi mən burjuvazın lap dibiyəm,
O səbəbdən oların sol cibiyəm,
Oların vəsfini lazımdu diyəm,
Pul mənimdir, mən onun sahibiyəm,
Ey demokrat beçə, əl çək, satıram,
Gəl-gəl, ay müştəri, məslək satıram.

Görməyirsən ki, müsəlman nə yapır,
Yabısın tez duma hər cüm'ə çapır,
Kimdə bir parça çörək görsə, qapır,
Bu qarın söhbətidir yaxşı yapır,
Mən də qarnım içün, ay bəg, satıram,
Gəl-gəl, ay müştəri, məslək  satıram.

Pul, çörək eşqi dolubdur ürəgə,
Durmuşam ağ-qaranı görməməgə,
Xakpayəm ağa, dövlətlilərə, şanlı bəgə,
Satıram məsləki lap bir çörəgə,
Nə çörək? Versələr irmək, satıram,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəl-gəl, ay müştəri, məslək satıram.

*1917*

## SİPƏHDARİ-Ə'ZƏM

Ey fələk, pozdun əcəb samanımı,
Badə verdin dinimi, imanımı,
Əldən aldın mülkimi, milyanımi,
Səxtimi, Çalusimi, Gilanımi,
Rəşt, Qəzvinimi, Laycanımi,
Qoymadın Əs'əd kibi oğlanımi
Kim, ucaltsın asimanə şanımi,
Qoyma barı cəngəl alsun canımi,
Ta ki, rahət eyləyüm vicdanımi.
Ta Kuçik xan dəstəsi cəngəldədir,
İşlərim başdan-başa əngəldədir,

Qüssədən könlüm olubdur dağdar,
Noldi Tənkabun, Xürrəm, Şəhsuvar?
Handadır, çubü fələk, zindanü dar?
Əhli-Tənkabın, sanardı girdigar,
Bir çox illər kəndimi xurdü kibar,
Oğlum Əs'əd keyf çəkərdi şahvar,
Hər gecə qonyaq, uşaq, mehman, siqar,
Hər günüz at, it, tüfəng, tazı, şikar,
Zəncirlər işləyir şamü nəhar,
Yağ, quzi, qaymaq dodaqlardan yağar,
Mən özim nə edim? vəziri-bavüqar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu büsati kimlər etdi tarümar?

Ta Kuçik xan dəstəsi çəngəldədir,
İşlərim başdan-başa əngəldədir.

Mən vəziri-daxiləyidim ol zəman,
Bəlkə, İranə sərasər hökmran,
Cümlə xanlardı qapımda pasiban,
Keyf çəkərdim hər gün, hər saət, hər an,
Lül piyan, daim piyan, daim piyan,
Düşmən olsaydı mənə külli-İran,
Keyfdən qalmaz idim bir dəm, inan,
Çünki arxamdaydı sərdarım İvan,
Yıxdılar atdan səni, ey yar can!
İşlərim bir gör necə olmuş yaman,
Bir Kuçik xan çıxdı çün şiri-jəyan,
Çaqqala döndüm, gəl, ey ibnüz-zəman.

Ta Kuçik xan dəstəsi cəngəldədir,
İşlərim başdan-başa əngəldədir.

Rəhm qıl, ey xaliqi-sübhan, mənə,
Doldurur saqqallılar qəlyan mənə,
Qəht olub İranda bir oğlan mənə
Kim, verir saqqallılar fincan mənə,
Vodka adinə verir al qan mənə,
Yan mənə, ey çərxi-dövran, yan mənə!
Olmadı qismət dəxi Gilan mənə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bari, yarəb, qıl ölüm ehsan mənə,
Səfheyi-İran olub zindan mənə,
Təng edib dünyanı Kuçik xan mənə.

Ta Kuçik xan dəstəsi cəngəldədir,
İşlərim başdan-başa əngəldədir.

*1917*

## BAKI MİLLİ KOMİTETİNİN VƏFATI MÜNASİBƏTİLƏ

Sən, ey islamə hami, millətə səddül-aman, getdin,
Gələndə yaxşı gəldin, bir təhər qaldın, yaman getdin.

Qurultay qurqurundan dəng edərdin xəlqi, ay zalım,
Nə yatdın, nə çıxardın kim, bu gün aldın daban, getdin.

Daşı gəl tök ətəkdən, getmə, millət qalmasın başsız,
Bu başsız millətə olmaqdan isə pasiban, getdin.

Qurultay pulların təbliğə sərf etmək bununçünmiş
Ki, millət batdı, pul getdi, özün də bağrıqan getdin.

Edərlərsə bizi muxtar, o dəm sərkərdə kim olsun,
Kimi katib seçək, kim vermiş olsun imtəhan, getdin.

Deyirlər, üç nəfər Təbrizə göndərdin, qaçıb gəldi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əzizim, yoxsa incə könlünə dəgdi İran, getdin.

Görüm təklifini rədd eyləyən Təbrizə qar yağsın,
Bizim aclıqlara həsrət qala, başə salan, getdin.

Nüfuzun itməgindən sən müqəssir olmasan, haşa,
Bu millətdir həmişə xəlqdən dalda qalan, getdin.

Paho, getdin, əcəb, aşnan içün gəldin əzəl gündə,
Neçün gəldin, neçün getdin, gözəl gəldin, yaman getdin.

*1917*

## ZƏBANİ-HAL

Yarəb, nə bilim bir belə dövran olacaqmış,
Şantan köçəcək, mənzili viran olacaqmış.

Könlümdə qalır yadın, əya, nazlı Palerma,
Mə'şuqəli, mütrüblü, meyü sazlı Palerma,
Valeh sənə iranlı və qafqazlı, Palerma,
Evmizdə yeyib-içdigimiz qan olacaqmış,
Yarəb, nə bilim, bir belə dövran olacaqmış.

Marqo, gözəlim, qurban olum ol gözə-qaşə,
Lə'nətlər ola Fatmədəki sirkəli başə,
Sənsiz nə lüzum bir bu qədər sə'yü təlaşə,
Gündüz mənə zindan, gecə niran olacaqmış,
Yarəb, nə bülim, bir belə dövran olacaqmış,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Axdırdığın, ay bolşevik, ol qan səni boğsun,
Pulsız, pinəsiz, içdigin şanpan səni boğsun,
Pislik niyə etdin, a Şaumyan, səni boğsun,
İndi yuvan xakilə yeksan olacaqmış,
Yarəb, nə bilim bir, belə dövran olacaqmış.

Yandırdı papaq başımı, vay, vay, hanı şapqam,
Yayda kilovuş, qışda dəri fincanı şapqam,
Xəlvət küçənin, padvalın ən dərmanı şapqam,
Axır papağım bir yekə qazğan olacaqmış,
Yarəb, nə bilim, bir belə dövran olacaqmış.

Əgnimdə libasım urusi, pensinem ə'la,
Tazə jiletim, dügmələri nüqrə müttəla,
Papuşlarım laklı, ayaq görməmiş əsla,
Ax, bir papağım var ki, ...pizdan olacaqmış,
Şantan köçəcək, mənzili viran olacaqmış.

*1918*

## HAZIRLIQ

Gəldi genə əyyami-müsibət, a cavanlar,
haydı, işə başla.
Çoxdur pulumuz, ver də yesin mərsiyəxanlar,
köhnə peşə başla.
Düşmənlərimiz əhlimizə hər nələr etmiş,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

küllən bilir aləm.
Evmiz dağılub, var-yoxumuz qarətə getmiş,
canın becəhənnəm.
Çıxsın canımız, pul qazanaq, məclisimizdə
səf-səf duran olsun,
Yaşıl, qara geymiş, özi çılpaq iki üzrə,
zəncir vuran olsun.
Arşın, tərəzi əgri-düz olsa nə ziyanı,
vicdanımız olsun.
Ancaq çalışaq, razı salaq mərsiyəxanı,
imanımız olsun.
İman dedigin şey nədədir – tövqdə, təbildə,
əlbaqi yalandır.
Onlarla günah pak olacaq bizdən hər ildə,
əl çəkmə, amandır.
Elmü mədəniyyət nə demək – xəncəri sazla,
üdvanlara lə'nət.
Nə’ş olmağa üç-dörd yekə bir həmşəri sazla,
şeytanlara lə'nət.
Çək zənciri, vur başına, ol qanına qəltan,
bir başqa kələk var.
Naxoşla da, yat, başına bağla yekə yorğan,
biclik eləmək var.
Göstər həkimə yarələrin, eyləsin "ay-ay",
max vermə, qəm etmə.
Əhvalını görsün, elə yazsın "eto balnoy",
əsgərligə getmə.
Əsgərligə getmə, nə olur millətin, olsun,
batsın yerə millət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əg börkini, at qollarını, hörmətin olsun,
vur "votka"nı, keyf et.
Aç çayçi dükanı,
Çaldır balabanı,
Əsgərligə düşsən,
Ver mollaya rüşvət.

*1919*

## ŞALBAN

Necə mən ağlamayım halına dükkançıların,
Keçən il lüt, bu sənə cümləsi milyonçuların.

Binəvalar hamısı düşmənə tarac oldu,
Gündə on min qazanan kəs kölədi, ac oldu,
Xəlqi soymaqla beş-on milyona möhtac oldu,
İşi yaşdır bu müqəddəslərin, imançıların,
Necə mən ağlamayım halına dükkançıların.

Malını bir manata alsa, satar əllicəyə,
Yaş-quri, sağ-çürüş, baxmayacaq hər neçəyə,
Satacaq ac qalana, qoymayacaqdır gecəyə,
Aclara çünki yanar hali bu insançıların,
Necə mən ağlamayım halına dükkançıların.

Kənd dəgirmançısının xəlqə məhəbbətlərinə,
Bir mükafat olacaq etdigi xidmətlərinə,
Bu çətin vəqtdə göstərdigi himmətlərinə,
Parapet – üç dirək ən'amı dəgirmançıların,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Necə mən ağlamayım halına dükkançıların.

Sordular qanını xəlqin genə heç doymadılar,
Var-yoxu aldılar, heç kəsdə qəpik qoymadılar,
Pullarını aldılar isə, dərisin soymadılar,
Genə rəhmət ola insafına vicdançıların,
Necə mən ağlamayım halına dükkançıların.

Kənd dükkançısının halı düzəlməz əsla,
Aclığından əriyib ordları dolma-dolma,
Nə alış var, nə veriş, həpsi edər vaveyla,
Bəd gətirdi əli bu ildə badımcançıların,
Necə mən ağlamayım halına dükkançıların.

Nuşcan et o halalca qazanan dövlətini,
Olma insan kimi, tərk etmə gözəl adətini,
Şükrilillah ki, dəxi görməyirəm surətini,
Sövti-bədləhnin eşitməm dəxi bostançıların,
Necə mən ağlamayım halına dükkançıların.

*1918*

## RÖVZƏXAN

On səkkiz, hər tərəf, hər yanda gəzdim bağrıqan,
Kimsəsiz, hər mədrəsə küncində tutdum aşiyan,
Gah tapardım, gah yox, əkmək yeyərdim həp yavan,
Tirboyun tüllablarla ömr sürdim hər zəman,
İmtəhan verdim, nəhayət, sonra oldum rövzəxan,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman.

Ağcigər kimi saraldı dərddən ruxsari-al,
Saqqalı qoydum uzansun yarım arşın laməhal,
"Qumri" vü "Dilsuz"dən mən eylədim kəsbi-kəmal,
Bakuyə qoşdum hər il, pullar qazandım bir çuval,
Cib doli döndüm geri, Xalxal tərəf oldum rəvan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman.
İlbəil artdım, ucaldım, xəlqə oldum şeyxi-pir,
El qulamım oldular, istər səğir, istər kəbir,
Hər səhər çay süfrəm içrə şit kərə, qaymaq və şir,
Hər gecə həmlə edərdim nimçəyə çün nəreyi-şir,
Sovtimdən titrəyirdi o şələ, dolma-flan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman.

İşbu il, ey vah, qaldım şoğərib Xalxaldə,
Bakudən çox-çox uzaq yerdə yaman əhvaldə,
Hər tərəf məsdud, mən məhbuslər əmsaldə,
Hardasan, ey Bakü əhli, böylə müşkil haldə,
Siz degilmidüz mənim ümmətlərim pirü cəvan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman.

Könlümi talan edər hər ləhzə min rəncü kədər,
Evdə qaldım, heyf kim, mümkin degül etmək səfər,
Badkubə içrə oldi rövzəpəzlər bəxtəvər,
Hər biri yüz məclisi tutmuş, verirlər dərdi-sər,
Mən kibi bir şeyxi-kamil evdə qalmış bağrıqan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ey yürək, əmrazimə tək bircə dərmanım pilov,
Gəl-gəl, ey siminbərim, tabi-tənü canım pilov,
Sən mənim əqlim, vücudim, qəlbü vicdanım pilov,
Sən mənim Məkkəm, Mədinəm, dinü imanım pilov,
Sənsiz aləm olmasun məxrubə, olsun asiman,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman.

*1918*

## "İSKİ"LƏR, "OF"LAR, "Lİ"LƏNDILƏR

İskilər, oflar bu gün "li"ləndilər,
Novpərvərlər də milliləndilər.

İskilər "oğli"lərin dəmsazıdır,
"Zadə"lər də "of "lərin həmrazıdır,
Cümləsi millət, vətən "canbazıdır",
Qalxdılar yeksər tərəqqiləndilər,
İskilər "of "lar bu gün "li"ləndilər.

Öylə bir təğyiri-aləmdir bu gün,
Ağ boğazlar xəlqə məhrəmdir bu gün,
Öz lisanın bilməyən kimdir bu gün,
Köhnə işlər həpsi faniləndilər,
"İskinlər", "of "lar bu gün "li"ləndilər.

Şapqaya heç kəs dəxi etməz həvəs,
Köhnəlikdən gəlməyir bir zərrə səs,
"Meydanski" "Şalbanski" noldu bəs?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şişdilər, üfürüldülər enləndilər,
“İski”lər, “of ”lar bu gün "li"ləndilər.

Anlamış ancaq bu gün millətin,
“Li'ləmiş ismin, dəgmiş surətin,
Heç inanmam dəgişə öz xasiyətin,
Ruslığa əzbəski adiləndilər,
“İski”lər, “of ”lar bu gün "li"ləndilər.

"Li"ligindən köhnə "li" görməz səmər,
“İski” olmuş "li" olan tək bəxtəvər,
“İski”lər “of ”lar, canınçün, sərbəsər
"Li" olantək cümləsi "pi"ləndilər,
“İski”lər, “of ”lar bu gün "li"ləndilər.

Sandığa qoymuş hamı "iski"ligin,
İşlədər şimdi əlində “li”ligin,
Başlasa çərxi-fələk yağiligin,
Bir də baxsan həpsi "iski"ləndilər,
“İski”lər “of ”lar bu gün "li"ləndilər.

Batdı səhnə, öldi sən'ət, ay dədə,
"iski"siz artist olarmı səhnədə?
Xəlqdə insaf yox, bir zərrə də,
Səhnəyə artistlər asiləndilər,
“İski”lər, “of ”lar bu gün "li"ləndilər.

*1918*

**BƏŞARƏT**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Derlər ki, cəhan yeksərə viran olacaqdır,
Abad qalan tək bizim İran olacaqdır.
Dünya yüzi daim qalacaqdır qəlyanda,
Heç kəs yaşaya bilməyəcək əmnü əmanda,
Sülh olmayacaq, yüz sənə də keçsə, cəhanda,
Bir dəf'ə xüruc etməyə bir xan Həmədanda,
Dünyanı salan nəzmə həman xan olacaqdır,
Abad qalan tək bizim İran olacaqdır.

Bir falçıya sordum ki, nə vardır yeni əhval,
Baxcaq falına söylədi, iş yaxşıdır əlhal,
İranda xəvanin yığaraq üç körür həmmal,
Sövq eyləyəcək Avropaya onları əmsal,
Avropa bütün qanına qəltan olacaqdır,
Abad qalan tək bizim İran olacaqdır.

Yüz min əli zəncirli, qanı qarə qəbalı,
Yüz min dəxi dərvişlər ol firqeyi-ali,
Bir ləşkəri-nüsrət ki, yoxdi misali,
Avropalılar görsə bizim böylə cəlali,
Anlar ki, necə yer yüzi tufan olacaqdır,
Abad qalan tək bizim İran olacaqdır.

Sonra gedəcək qərbə tərəf beş min əmamə,
Ta kim, salalar cümləsini nəzmü nizamə,
Avropalılar qalxmalıdır cümlə qiyamə,
İman gətirə ta ki, hamı şeyxi-Hümamə,
Yoxsa o müqəssirlərə divan olacaqdır,
Abad qalan tək bizim İran olacaqdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Daim yaşasın dəhrdə fateh dəgənəklər,
İşbu dəgənəklər tutan ol bəbr biləklər,
Dünyayə gərək hakim ola cümlə giləklər,
İnsanlara onlar baxacaq, hökm edəcəklər,
İranın əliylə hamı saman olacaqdır,
Yol göstərən insanlara İran olacaqdır.

*1918*

## MÜSƏLMAN USTASI

Hər işə qıl də'vət, ay millət, müsəlman ustası,
İş görəndə çox edər diqqət müsəlman ustası.

Bircə günlik iş bir ay kifayətdir yəqin,
Görməz heç tə'cilə bir hacət müsəlman ustası.

Əgri bögri yansa da, möhkəm yapar, çün eyləmiş,
"Tüstisi düz çıxsın"a adət müsəlman ustası.

On dəqiqə işləyəndən sonra bir qəlyan çəkər,
Bircə saət də edər söhbət müsəlman ustası.

Cümleyi-ərbabi-hikmətdir, işin əslin tapar,
Sevməz əsla mə'nisiz zinət müsəlman ustası.

Diş çıxardar, ev tikər, fayton sürər, yorğan sırar,
Saxlamaz heç əldə bir sən'ət müsəlman ustası.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

“Kəs dilin xanəndə "Yansı"n usta İslamın əlin”,
Böylə der əcdadımız, əlbət, müsəlman ustası.
Çünki dünya beşcə günlikdir, nə lazım sə'y edib,
Sən'ətində əxz edə rif'ət müsəlman ustası.

Pul alar iş sahibindən işlərin qurtarmamış,
Verməsən, dalca edər qeybət müsəlman ustası.

*1918*

## BİR MÖMİNİN AVROPALIYA XİTABI

Ay avropalı, tut sərü, saman sənin olsun,
Hörmət sənin, izzət də sənin, şan sənin olsun.
Elmə, hünərə sə'y qıl, ürfan sənin olsun,
Sən'ətdə ucal, aləmi-imkan sənin olsun,
Zəngin odalarda otur, eyvan sənin olsun,
Hər yerdə gözəl, sevməli canan sənin olsun,
Bir beyt yuvası köhnəcə yorğan mənə bəsdir,
Cənnət quşuyam yatmağa külxan mənə bəsdir.

Öydürmə dərin əqlini və'zi-üləmayə,
Bir saətini boş yerə sən vermə fənayə,
Tap texnikanı, padşah ol ərzü səmayə,
Pul istər isən getməgə yol yulduzə, ayə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sal elm yolunda başını dərdü bəlayə,
Mə'ruzə oxu texnikalardan cühəlayə,
Lazım degil, əlbəttə, bular biz üqəlayə,
Beş gün bu cəhanda quri bir nan mənə bəsdir,
Üqbadə isə cənnəti-rizvan mənə bəsdir.

Ol qədr oxu kim, elm eləsin başını sərsəm,
Elmilə müsəxxər elə, olsun sənin aləm,
İnsanları lap həlqə beguş eylə cəhənnəm!
Bir həlqə də ver, ta ki salım guşimə mən həm,
Lakin genə əfzəl mənəm, ey küfri-mücəssəm,
Sal yadına, a kişi, ölümi, qəbri dəmadəm,
Boş elm yolunda keçər ol huridən adəm?
Huridə olan ol ləbi-xəndan mənə bəsdir,
Qoy huri qala mollaya, qılman mənə bəsdir.

Sazla gəmilər, qoy sənin olsun okeanlar,
Məmlukin ola isgələlər, cümlə limanlar,
Göglərdə səyahət elə yap aeroplanlar,
Sualtını gəz, tap oradan tazə nişanlar,
Qəhr olmalı bu işdə sənə qibtə qılanlar,
Mö'minlərə bəsdir dili xoş mərsiyəxanlar,
Bir ildə on ay dideyi-giryan mənə bəsdir,
Zəncirü qəmə, tövqi-zərəfşan mənə bəsdir.

Verme, a dəli, beyninə sən bir gecə rahət,
İşlə, genə işlə, gecə-gündüz çək əziyyət,
Tədqiq elə həp maxələqi, ömrini sərf et,
Dər dəst ola ta kim, sərrişteyi-hikmət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yar, parçala, tik, bətndə gər olsa cərahət,
Mən bunları lakin sanıram cüz'i zərafət,
Sən öylə xəyal etmə ki, yox bizdə təbabət,
Ülgüc, həcəmət, neştəri-bürran mənə bəsdir,
Bir tütünotum, bir quri reyhan mənə bəsdir.

*1918*

## İNŞAALLAH

Millətin xoş güni axır gələr, inşaallah,
Biz də bir gün olarız bəxtəvər, inşaallah.

**Alçaq deyir ki:**

Çayçılarda hələlik zurnamızı çalmalıyız,
Köhnə paltar Quba meydanda satıb-almalıyız,
İləri getsə də, getsin hamı, biz qalmalıyız,
Qabağa istəsə millət gedər, inşaallah,
Biz də bir gün olarız bəxtəvər, inşaallah.

**Xırda tüccar deyir ki:**

Hələlik buğdanı üç yüz manata satmalıyız,
Buğdanın ağ uninə arpa uni qatmalıyız,
Bir-birin gündə Əli eşqinə aldatmalıyız,
Cürmimizdən özi molla keçər, inşaallah,
Biz də bir gün olarız bəxtəvər, inşaallah.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Cavanlarımız deyir ki:**

Kazino artıq açılmış, bu da bir fali-nikü,
Şükrillillah, bizə qarşı gəlir iqbali-nikü,
Toplanıb iştə ora əlli nəfər mali-nikü,
Gecə girsən, çıxacağsan səhər, inşaallah,
Biz də bir gün olarız bəxtəvər, inşaallah.

**Milyonçularımız deyir ki:**

Getdi türklər, açılar şimdi ticarət qapısı,
Bizə işrət qapısı, fəhləyə zəhmət qapısı,
Bir tərəfdən qapanar rəhmü mürüvvət qapısı,
Füqəra verməyəcək dərdəsər, inşaallah,
Biz də onda olarız bəxtəvər, inşaallah.

**Molla deyir ki:**

Xəstəlik aləmi tutmuş bu də bir müjdə, əvət,
Xəlq ölər, süfreyi-ehsan düzələr, süfrədə ət,
Ağ pilov, turşi badımcan, cücə büryan, şərbət,
Yeyərəm, məst olaram bixəbər, inşaallah,
Onda mən də olaram bəxtəvər, inşaallah.

**İnteligent deyir ki:**

Hələlik "iski"ləyib adları adam tutaq,
Gecə təşrif aparaq restoranə, cam tutaq,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Görərək millətin iflasını, aram tutaq,
Özi axır olacaq bir təhər, inşaallah,
Onda biz də olarıq bəxtəvər, inşaallah.

**Ricali-hökumət deyir ki:**

Qarını yoğunca bəgim məmləkətin rahbəri,
Bu yoğun qarnıma dolmuş hamının dərd-səri,
Mən gələndən bəri gərçi gediyor xəlq geri,
Yola doğru yüzi bir gün dönər, inşaallah,
Biz də bir gün olarız bəxtəvər, inşaallah.

**Aktyor deyir ki:**

Yüzimi rəng ilə əlvan edərəm millət içün,
Səhnələrdə sürünüb can verərəm millət içün,
Hələ gəncəm, taparam bir quri nan külfət içün,
Qocalarsam, mənə millət gülər, inşaallah,
Onda mən də olaram bəxtəvər, inşaallah.

**Əhli-qələm deyir ki:**

Hələlik bir soyuq evdə yataram ac-yalavac,
Bilirəm qəmlərimə etməyəcək kimsə əlac,
Ruhi-ülvimi qoy etsin hələlik qəm tarac,
Ölərəm, sonra adım söylənər, inşaallah,
Topraq içrə olaram bəxtəvər, inşaallah.

*1918*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## YOLKA BAYRAMINDAN MƏHRUM OLANLARA TÖHFƏ

Ax, ilahi, bəxtimiz ram olmadı,
Bu sənə evmizdə bayram olmadı.

Hər sənə yolka alardım mən dirəng,
Yolkadan şeylər asardım rəngbərəng,
Xırda "güllər", “alma”lar, şamlar qəşəng,
Xırda-xırda kuklalar boynunda zəng,
Ev qonaqsız heç bir axşam olmadı,
Ah, bu il evmizdə bayram olmadı.

Dün gecə sordi uşaq, yolkam hanı?
Söylədim, oğlum, dolandım hər yanı,
Tapmadım heç yerdə sabiq yolkanı,
Yolkadan bomboşca gördüm meydanı,
Neyləyim, oğlum, sərəncam olmadı,
Ah, bu il evmizdə bayram olmadı.

Ah, ah, ey yolka, ey keçmiş zəman!
Bayram olcaq mən olardım şadiman,
Süfrə əlvan, süfrədə şanpan-flan,
Mən piyan, oğlum piyan, Marqo piyan,
Arvadım zalım qızı ram olmadı,
Ah, bu il evmizdə bayram olmadı.

Gəldi bayram bir çuval qəmtək mənə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Oldi dünya lap cəhənnəmtək mənə,
Evmiz oldi bəzmi-matəmtək mənə,
Yazıq oğlum baxdı sərsəmtək mənə,
Ağladı heç bir aram olmadi,
Ah, bu il evmizdə bayram olmadı.

Buğları sabiq kimi heç eşmədim,
Ruslara getdim qonaq, əgləşmədim,
Verdilər içdim, vəli, lülləşmədim,
Mən kimi heç bəndə nakam olmadı,
Ah, bu il evmizdə bayram olmadı.

*1919*

## BALAXANI MƏNƏM-MƏNƏM DEYƏNLƏRİNƏ TÖHFEYİ-ƏBƏDİ

Pəh-pəh, nə gözəl məktəbi-xeyriyyə yaratdın,
Əhsən sənə, məşdi, nə cəhalət daşın atdın.
Də'vət elədin məktəbə bir kaç də müəllim,
Alsın küçədə qalmış uşaqlar hamı tə'lim,
Məktəb işi, xeyriyyə işi banisi oldun,
Əhsən sənə, məşdi, belə doğri yoli buldun.
Rəhmətlik atan olmağa müstəğriqi-rəhmət,
Əlbəttə, səzadir ola şayəsteyi-rif'ət...
Gördim mən ötəndə oxuyur hamsı həmavaz,
Ey mərdlərin şanlısı! Ey qeyrəti-mümtaz!
Coğrafiya, sərf, həndəsəvü elmi-hesabı,
Ortadə müəllim, hamı açmışdı kitabı,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məşğuli-qiraət idilər cümləsi yeksər,
Hər müşkül işin həllini onlar hamı bəklər.
Söylərdi müəllim olara keçmişi, hali,
Müstəqbəli söylərdi, fəqət, yoxdi məali.
Çünki şu mübarək qədəmin çıxsa aradən,
Məktəb sözin hamısı qovarlardı həvadən.
Min kərrə təşəkkür sənə, ey kani-məarif,
Sərf eyləmisən məktəbə sən çoxli məsarif,
Haşa ki, sənin şəninə gəlməz dəxi nöqsan,
Oldun bu həvəslə bu güni elmə nigahban.
Sən böylə həvəs ilə ki, oldun işə azim,
Söylə, görəlim, bir dəxi nahər nəyə lazim,
Onsuz məgər açmaq olamaz məktəbi-ürfan
Tə'limə çapuq gəlməgə ya yoxmu yetiman?!
Hala ki, açıbsan oxudur kaç nəfər ustad,
Məktəb odası, sinifləri – hər yeri abad,
Görməz dəxi səndən gözəl insanı zəmanə,
Çatdın necə, bax, mərtəbəyə, şanlı məkanə.
Hifz eyləyəcək ismini hər səfheyi-tarix,
Mərd oldun özin mərd ilə mərdanəliyə pix.
Artıq şu məarif işinin banisi sənsən,
Əhsən sənə, əhsən sənə, əhsən sənə, əhsən.

*1919*

## MÜSAHİBƏ

### Milyonçunun xitabı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bomboş yaşa, milyonlara sahibsən əgər, gəl,
Yoxsa bizim eyş aləminə olma bir əngəl.
Əngəl, əvət, əngəl, neçün əldə qələmin var,
Könlündə də min dürlü qəmin var, əməlin var.
Əngəl, əvət, əngəl, neçün ərbabi-qələmsən.
Xud dərdü vərəmsən də, bütün qüssəvü qəmsən,
Mən xərc eləyən pulları gördigdə, a nəkbət!
Neyçün yaxıyor qəlbini nirani-bəxalət,
Fəryad ediyorsan, nə bilim, "millət oyanmaz",
Varsun o oyansun ki, pulun qədrini qanmaz.
Dünyadə cəhənnəm keçiyor ömri, həyati,
Get-get, məni ürfanə tərəf çəkmə, çağırma,
Ürfan qara puldur, qara pul, sus da, bağırma,
Bu səndə olan aclığa ürfanmı deyirlər?
Pulsuz-pinəsiz kəslərə insanmı deyirlər?

**Əhli-qələmin cavabı**

Ya səndə olan kəlləyə ovdanmı deyirlər?
Vicdanına, insafına milyanmı deyirlər?
Altunlu məgəssən, özini sanma bəşərdən,
İnsanlıq adın, çəkmə də, doldır cibi zərdən,
Get şantana, get restorana, iç meyi, eyş et,
Gəldikdə ölüm həsrətilə yumbalan öl, get.
Yeksər unudulsun sənin ol olmayan adın,
Nifrətlə səni yad eləsin ta ki nəjadın.
Ölsəm mən əgər, bir neçə kağızdan ibarət
Asarım olar anlayana rəhbəri-ibrət.
Sən də kişisənsə, qızılınla bir əsər yap,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İştə bu əsərlə əbədi ölməyən ad tap.

*1919*

## BALAXANƏDƏN

Atdı kəməndi-eşqini tazə nigarə parcanım,
Xeyli məsafə yan verir köhnə nigarə parcanım.

Madmazel almaq, ay canım, layiq olarmı heç sənə,
Həştadə çatmısan, gözün on beşə tikmisən genə,
Get, burax evdəkini sən, axtar özünə bir tənə,
Ver günə sökət özini köhnə divarə, parcanım.

Afərin, ay balam, sənə, sən füqəra kəfilisən,
Kimsə deməz sənə saqın, Rozaların səfilisən,
Çünki seçilməmiş, Balxananın vəkilisən,
Get, giriş hər ticarətə, qalma kənarə, parcanım.

Qorxma, işini gör, kişi, yırğalama yekə başın,
Məşdi, fəsad tək sənin vardı dalında yoldaşın,
Get, yüri, sat, puluni al, sovdu ki küftəbozbaşın,
Qalma bu qədr müntəzir badi-bəharə, parcanım.

Neyləyəcəkdi "bez"ləri, Balxananın cəmaəti,
Sat, pulun at cibişdanə, qoy eləsin qənaəti,
Bilməyəcək ki, fabriqant böylə fəna qəbahəti,
Tay elə zorba qəddini cümlə kübarə, parcanım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*1919*

## O NƏDİR?

Sana cavab budur, söz soran aşıq,
İmlamızdır – sözi vardır, özi yox,
Mən yazıram anlamağıma müvafiq,
Şairlərdir – özi vardır, sözi yox.

Ziyalıdır – bizləməsən, çalışmaz,
Kəndlimizdir – dindirməsən, danışmaz,
O İrandır – xeyrə-şərə qarışmaz,
Çemberlendir – həq görməgə gözi yox.

O məzhəbdir – vəqti keçmiş, ölməyir,
Alverçidir – hey ağlayur, gülməyir,
Doktorlardır – yaxşı-yaman bilməyir,
O narkomdur – özin görir, bizi yox.

Kənd yoludur – mümkin ikən yapılmaz,
"Qorniyak"dır – ignə satar, sap olmaz,
"Baksayuz"dur – istədigin tapılmaz,
"Azsayuz"dur – arşını var, bezi yox.

Klublardır – ayda qırx gün bağlanır,
Qulluqçusi bir həftə yağlanır,
"Komunxoz"dur – qapısında ağlanır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kənd "bangı"dır – yoxdan başqa sözi yox.

O maşındır – gün uzuni işləyir,
O dəllaldır – işləmədən dişləyir,
O hacılardır – gündə arvad boşayır,
Kablayıdır – oğlan sevir, qızı yox.

Kənd məktəbi – bir həsirdir, dörd divar,
Müəllim yox, bir qapıdır, bir açar,
Kənd şurası – gördiginə göz yumar,
Mənzili var, içində bir mizi yox.

"Aztseso"dur – dəftəri çox, işi az,
"Narkom" sabez – "sabah gəl"i qutarmaz,
"Narkompros" – cavab verməz, yüz bin yaz,
Kopratifdir – qışda getsən, buzi yox.

*1926*

## LOQARNO

Çemberlenəm-dilavər; qorxar cəhan gücimdən,
Müstəmləkat titrər Emeri* kibi bicimdən,
Dünyadə hər nasıl baş qurtarmaz ülgücimdən,
Oldum cəhanə yeksər hiyləmlə tacidara.

Yapdım bu gün Loqarno şurayə qarşu bir zad,

* Emeri – İngiltərənin müstəmləkə naziridir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilsən Loqarno nə imiş, eylərsən ahü-fəryad,
Şahim verib medalyo, söylər ki, əhsən, ustad,
"Hər dahidən füzuntər sən oldun aşkara".

Alman, firəng, belçiq əmrimdədir bu saət,
Balkan bütün sərasər qarşımda bir rəiyyət,
Avucumdədir italyan, Çinü Japon çe söhbət,
Könlüm Amerka istər, həq verdi iştəhara.

Şərqin yaxınlığında hər kəs ki var, qulumdur,
Hər gün satar-alaram vicdanları, pulumdur,
İslamlar qatırımdır, altun da dumbulumdur,
Dumbul vuranda meymun hər cür oyun yapara.

Fəhlə deyir, ay aşna, soxdun  kül içrə,
Daldan xəbər yoxundur, aşlar pişir sol içrə,
Çəkmiş tüfəng əyağə, avçi gəlir yol içrə,
Köksən ətək müəttəz, mənğal gətir nəhara.

Keçdi köpək zamanı, növbət həqiqətindir,
Yığ dul, burazı, aşna, söz indi zəhmətindir,
Hər yapdığın xəyanət kəndi fəlakətindir,
Gəldikdə yövmi-məhşər eylərsən intihara.

İt xoşlanar sümükdən, iksin yeyər üçində,
Gördün ilişdi-qaldı birdən boğaz içində,
İxracını bacarmaz bin sən kibi laçın də,
Sən, ay dilavər, mə'zur dar mara.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*1926*

## YAŞASIN

Deyirəm, molla əmi, cümlə müsəlman yaşasın,
Yə'ni onlardakı namusı insan yaşasın.

Yaşasın tazə Hicazın kralı İbni Sə'ud,
Sonra Feysəldə olan şövkəti-Sultan Məhmud,
İngiliz tazə kralə yenə versin mövlud,
Müxtəsər baş-başa qəyyur Ərəbistan yaşasın,
Ərəbistan dedigin türbəti-rizvan yaşasın.

Yaşasın Türkiyədə nalə çəkən köhnəçilər,
Mövləvilər, zor ilə şapka qoyan əhli-"xəbər"
Oldi biçarələrin yurd-yuvası zirü zəbər,
Mövləvi beççələr, ol zülfi-pərişan yaşasın,
Əhli-Bəktaşi Vəli qəhvəvü qəlyan yaşasın.

Yaşasın Ərdəbilin minlər ilə rövzəxanı,
Xəlxalın seyyidi və İsfəhanın rəml atanı,
Kirmanın dərvişi və Məşhədin əfyun satanı,
Ölürəm, ay kişi, başdan-başa Gilan yaşasın,
Bizim isna-əşəri məzhəbi, İran yaşasın.

Yazdılar, Şərqdə sulitanları çox danladılar,
Ağalar mətləbi gör indi necə anladılar,
Parisə, Londona bir səslə durub banladılar,
Kapital söylədi, səs salma, cibişdan yaşasın,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sonra sizlərdəki alver malı, vicdan yaşasın.

*1926*

## YA ŞEYX!

*Cüm'ə məsciddə Şeyx Qəni ilə Mirzə Kamyabın vəqt üstündə mübahisələri düşdügi üçün Şeyx acıq edüb getmiş və sonra tərəfdarları onı yenə xahişlə məscidə çağırmışlar.*

Rəhm et, bizə gəl salma bizi çöllərə, ya şeyx!
Ya şeyx, qayıt, küsmə, otur minbərə, ya şeyx!

Bir mərsiyəxandan küsərək, etmə təğəyyür,
Öz kisənə, əlbəttə, ziyandır bu təkəbbür,
Axşam bizə gəl, firnini ye, hirsini söndür,
Biz bəndələrin mali də, lap canı sənindür,
Rəhm et, bizə gəl, salma bizi çöllərə, ya şeyx!
Ya şeyx, qayıt, küsmə, otur minbərə, ya şeyx!

Hər mərsiyəxan vaiz edən söhbəti sevməz,
Vaiz özi də onda olan haləti sevməz,
Dərvişə soruşsan, bu iki "millət"i sevməz,
Panbuğçi kişi, qaidədir, ağ iti sevməz,
Rəhm et, bizə gəl, salma bizi çöllərə, ya şeyx!
Ya şeyx, qayıt, küsmə, otur minbərə, ya şeyx!

Çoxdursa da gər Kamyabın əski günahi,
Hiç şəkk edəməm, əfv eləmiş həpsin ilahi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər halda bu gün vardır onun minbərə rahi,
Vardır kişinin can çıxaran şuri, segahi,
Rəhm et, bizə gəl, salma bizi çöllərə, ya şeyx!
Ya şeyx, qayıt, küsmə, otur minbərə, ya şeyx!

Nə edək, sən özin bil, bizə və'zin gərək əl’an,
Keçdin bu cəhandan oni tanrı qıla viran,
Lap tökdi daha zəhləmizi Fatma, Tükəzban,
Mö'min qocayız, pul verəriz, sat bizə qılman,
Rəhm et, bizə gəl, salma bizi çöllərə, ya şeyx!
Ya şeyx, qayıt, küsmə, otur minbərə, ya şeyx!

Çıxsa da əldən dükan, ölmüşsə ticarət,
Pendir-çörəgə evdəkilər qalsa da həsrət,
Qorxma, sana pul toplanacaq, keyfini saz et,
Qoy mirzə də alsın, sana bundan nə əziyyət,
Sən də, o da iftarə yeyək bal, kərə, ya şeyx!
Əl toğlusu tək piy yığıla peysərə, ya şeyx!
Rəhm et, bizə gəl, salma bizi çöllərə, ya şeyx!
Tax eynəgini, bənzə qoca əntərə, ya şeyx!
Ya şeyx! Qayıt, güsmə, otur minbərə, ya şeyx!

*1926*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## "BALIQ ALLAH"
## VƏ ONUN BƏNDƏLƏRİ

*Bakıda təzə mö'cizə olmuş, balıq başı işıq verirmiş. Müsəlmanlar da qurban vermişlər.*

### Çadırşablı qadınlar

Həzrəti-Məcid kəssin sizi, ey qanlı qadınlar,
Çarşablı qadınlar, yüzi kirşanlı qadınlar.

Heç gör yaraşırmı oruc ol rəngli düvağə,
Yaxud "bikəallah" yaraşır başda darağə,
Qur'an da başında, baxıyorsan sola-sağə,
Başqa yer ara, ay başı qur'anlı qadınlar,
Çarşablı qadınlar, yüzi kirşanlı qadınlar.

Çarşab hara, kirşan hara? a dərbədər olmuş,
Rəngsaz dükanından yüziniz beş-betər olmuş,
Bilməm nə olub ki, başınız dəngəsər olmuş,
Ay pirlərə hər il iki qurbanlı qadınlar,
Çarşablı qadınlar, yüzi kirşanlı qadınlar.

"Balniskə"də göz ağrısını etmə bəhanə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər kəs biliyor dərdini, bicdir bu zəmanə,
"Balniskə" olub şəkldə həmmami-zənanə,
Qulluqçulara rəhm et, a vicdanlı qadınlar,
Çarşablı qadınlar, yüzi kirşanlı  qadınlar.

Hər cüm'ə yapırsan Bibiheybətdə qurultay,
Divanə olurlar kişilər kənddə, vay-vay.
Heç gör tapılırmı sizə bir ölkədə həmtay?
Bir siz beləsiz, bir də ki iranlı qadınlar,
Çarşablı qadınlar, yüzi kirşanlı  qadınlar.

Dəstə ilə gedib Baksoyuzi qılma səyahət,
Gəzmək yeridirmi? oraya cayi-ticarət,
Heç ölkədə heç yerdə görünməz belə adət,
Bir anlayınız, a başı yorğanlı qadınlar,
Çarşablı qadınlar, yüzi kirşanlı  qadınlar.

Çarşab gözini örtdi, görünməz sana dünya,
At çarşabı, qorxma, səni şeytan yeməz əsla,
Sən yaşa insan kibi, rəng-məngiri tulla,
Görsün səni, təhsin eləsin şanlı qadınlar,
Çarşabsız, ədəbli, oxumuş, şanlı qadınlar.

*1926*

## BİRİNİN BAYRAMI, BİRİNİN MATƏMİ

*Şiə mollalarının adəti-qədiməsinə müğayir olaraq, bu il nədənsə oruc bayramı bir gündə vaqe oldu. Bu vəqtə qədər*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*görülməmiş bu "ittihadi" pozmamaq içün Şeyx Qəni ağa ramanalı Şeyx Hüseynə bir məktub yazıb onu və onun və'z etdigi Ramana və Bizovna cəmaətini təbrik edir:*

Xəbər var ki, bayramda mövlayi-şeyx,
Yazır şeyx Hüseynə ki, ey namdar,
Səni xaliq heç etməsin şərmsar,
Mübarək ola eydin, ağayi-şeyx.

Alan tək bu məktubumi basürur,
Xəbər ver, cəmaət ola şadkam.
Bu gün eyddir, oldu ruzə təmam,
Onu tutmaq, əlbəttə, mümnü'dir.

*Şeyx Qəni bu məktubu bir qasidə verib Şeyx Hüseyn ağanın hüzuruna rəvanə edir. Qasid Ramanaya çatmamış, yolda Buzovnaya gedən Şeyx Hüseynə rast gəlib deyir:*

Əssəlam, ey babası göglərə me'rac eləyən,
Əl çəkən malü puldan, özüni ac eləyən!
Çöhrənin nuri ilə oldu münəvvər yürəgim,
Sana qurban soğanım, yağlı qoğalım, çörəgim,
Sana bu naməni yazmışdır ağam Şeyx Qəni,
Ağamın məqsədi də baxəbər etməkdü səni,
Şəhrdə cümlə müsəlmanlar ediblər bayram,
Çünki bayramda oruc tutmaq edilmüşdü həram.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*Şeyx Hüseyn bu xəbəri eşidən kibi rəngi saralır, dizləri titrəyir, məktubu almaq istəmir və bir az götür-qoydan sonra məktubu alıb qasidə mehriban-mehriban deyir:*

Ey nuri-didə, canım bəradər,
Bu nə xəbərdir, Allahu əkbər?
Guş et bu pəndə,
Sən getmə kəndə.
Bayram edər xəlq şeyxi deyəndə,
Sən getsən əvvəl heç kəs inanmaz,
Hər nə desən də, bir kimsə qanmaz,
Sən gəl qayıt get, bu şeyxi şad et,
Əcrin verər həq, üqbadə, əlbət –

*deyə zavallı Şeyx Hüseyn Ramanada füqəra üçün pul toplayıb Bizovnanı da bu günə "anarşit" eləyibmiş, indi kənd əhli bu günün bayram olduğunu duyarsa, yəqin məscidə yığılmayacaq və şeyx də füqəra içün pul toplaya bilməyəcəkdi. Nə isə, qasidi bir çox dualar və yağlı dillər ilə tovlayıb geri qaytarır. Özü isə faytonda gedə-gedə fikirləşir ki, yaxş; ey dili-qafil! İndi nə olsun? Əgər cəmaətə bu günü oruc tutdursam, onda fe'li-hərəmə mürtəkib olaram, bayram e'lan etsəm, füqəranın pulu batar, nə qayırım ki, nə şiş yansın, nə kəbab. Əlin çolaq olaydı məktub yazan yerdə, Şeyx Qəni.*

*Bir az fikirləşəndən sonra şeyx fe'li-həramdan qorxub qət edir ki, bu Bizovnaya çatan kibi cəmaəti yığıb bayram e'lan etsin. O bu fikirdə ikən görür ki, faytonun bir təkəri yağsızlıqdan cırıldayır. Bu guya zəbani-halilə deyir:*

Qurban olsun, ay para, insafü vicdanım sana,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məzhəbim, ayinü keyşim, dinim, imanım sana,
Cənnəti-firdovsi əsla istəməm üqbadə mən,
Huri-qılmanlar fəda olsun, cibişdanım, sana.
Hər nə var, sənsən, səninçün xəlq olubdur büsbütün,
Ay kağız çervon, fəda ayatü Qur'anım sana.
Öylə zibasan ki, görcək hüsnini könlüm uçar,
Valeh olmuşdur bütün əqlim, tənim, canım sana.

*Təkərin bu nəvayi-dilxəraşı şeyxi əvvəlki fikrindən döndərdi. Şeyx yenə çarə aramağa başladı. Birdən yadına bir şey düşdü. Şəriətdə öylə bir şey var ki, "getdin, gördün ki, şərab içirlər degilən inşəallah ki, sirkədir".*

*Şeyxin kefi düzəldi, öz-özünə dedi:*

*– İnşəallah ki, bu kağızda bayram sabah olduğu yazılıbdur. Yaxud inşəallah ki, Şeyx Qəni şoğərib bu kağızı heç bənə yazmayıb. Yolun ortasında qasid də bənə verməyibdir.*

*Xülasə, ramanalı Şeyx Hüseyn Bizovnaya varid olur. Minbərə dırmaşır. Dünyanın faniligindən, pulun çirkin şey olduğundan, huridən, qılmandan və'z edir, sonra bir bizə nigah urub cəmaəti bir az ağladır. Silsiləcünban də öz qaidəsilə əyağə qalxıb cəmaətdən pul yığıb saf-çürük eləyəndən sonra yerdə qalanın şeyxə təslim edir. Şeyx arxayınca pulları cibinə yerləşdirir və gedib xəlvətcə müxtəsər qəlyənaltı eləyir. Axşam saat 5-də simasını pozğun, övqatını təlx qayırıb tə'cili surətdə məscidin həyətinə gəlir və müəzzini dama çıxarıb münacat verdirir. Cəmaət məscid həyətinə toplaşır ki, görsün nə xəbərdir. Şeyx əmmaməsi qoltuğunda boyni çiynində gözlərindən abi-neysan kibi yaş axdığı halda cəmaətin qarşısında deyir:*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ey əhli-iman, ətövbə, tövbə,
Oldum peşiman, ətövbə, tövbə.
Əl'an eşitdim bayram olubmuş,
Hər iş yerində əncam olubmuş,
Cümlə müsəlman nakam olubmuş,
Siz acü ətşan, ətövbə, tövbə.

Bən başı daşlı etdim qəbahət,
Nahəq qalub ac bir gün cəmaət,
Versin əvəz Həq ruzi-qiyamət,
Qırx-əlli qılman, ətövbə, tövbə.

*Cəmaət! Günahi-kəbirədir. Şəhər mollalarına arxayın olub oturdum ki, bayram olsa, bizə də xəbər verərlər. Allah lə'nət eləsin onlara, onlar əhli-dünyadır, nə isə, iş-işdən keçib, daha durmayın iftarə az qalır, gedin bayram eyləyin. Yoxsa fe'li-həram etmiş olarsınız. Ravi rəvayət eləyir ki, mö'minlər donquldanmağa başladı və hətta bir neçəsi şeyxin mübarək saqqalının da adını çəkdilər. Allah bu şeyxi nankor cəmaətin arasından çıxarıb öz yanına aparsın.*

*1926*

## YAZ FƏSLİ

Yaz fəsli gəlir, istiyə tab eyləmək olmaz,
Rahət gecələr şəhrdə xab eyləmək olmaz.

Yaylaqlara getsin gərək hər qarnıyoğunlar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qalsa, əridər gövdəsini büsbütün onlar,
Hazır oluyor onlar içün yaxşı vaqonlar,
Əhvallarını çünki xərab eyləmək olmaz.
Yaz fəsli gəlir, istiyə tab eyləmək olmaz.

Lazımdu kassırlar ola zövq ilə səfadə,
Eyb eyləməz, israf edələr kassadan adə,
Asudə yeyib-içməlidir yaxşı həvadə,
Çünki burada meyli-şərab eyləmək olmaz,
Yaz fəsli gəlir, istiyə tab eyləmək olmaz.

Başlandı yenə bir para kassada xəyanət,
Yaylağə gedib istədigilə ola rahət,
Təftiş zəmani qızarıb çəkmə xəcalət,
Eyb etmə ona, çünki əzab eyləmək olmaz,
Yaz fəsli gəlir, istiyə tab eyləmək olmaz.

Göndərməlidir arvadını Barjomə nepman,
Yağ-süt yeyərək kökləşə, bəlkə, neçə batman,
Daş-başdadır əncaq özi də, mətləbi bir qan,
Nepmandır, oni alçaq hesab eyləmək olmaz,
Yaz fəsli gəlir, istiyə tab eyləmək olmaz.

Çəksək, gələcək bir parası on iki batman,
Naxoşluğa salmış özini indidən oğlan,
Olsa, olacaq nazlu gözəldən ona dərman,
Bu barədə bir kəlmə itab eyləmək olmaz,
Yaz fəsli gəlir, istiyə tab eyləmək olmaz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# İKİ ŞƏHƏR

## Ləngərud şəhri

Ləngərud şəhrini gör fəsli-bəhar,
Ortasından şəhərin bir çay axar.
Qırağında çayın "azad" ağacı,
Sayəban, qaməti düz, misli-nigar.
Quşların nəğməsi oxşar ruhi,
Qələm istər hələ yazsın əş'ar.
İstəsən ki, gəzəsən çay qırağın,
Mümkün olmaz, neçün, əngəl çox var.
Hər kəs axşam götürə avtavasın,
Ölitək kəllə, bağırsaq, mırdar.
Orada xəlq verər meyyitə qüsl,
Orada həpsi yuvarlar paltar.
Yoğurur orda çörəkçi xəmirin,
Qoyuni orda kəsər qəssablar.
Dəstəmaz ordan alar Şeyx Hüseyn,
O sudan evdə qoyarlar səmavar.
“Ona mırdar demək olmaz”, - dedilər,
Deyəcək "abi-rəvan" xürdü kübar.
Orada, sanma ki, xortdan yaşayır,
Dinli, imanlı müsəlman yaşayır.

## Bakü şəhri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bakünin şəhri münəzzəm, məğrur,
Axşamı ərşə saçar ləm'eyi-nur.
Mavi gözlərlə baxar bəhri-Xəzər,
Yüzər üstündə qayıqlar məsrur.
Bulvar əsl tənəffüs yeridir,
Şəhərin bağçaları pək mə'mur.
Tikilib evləri son sistem ilə,
Səkilər pak, təmiz, cayi-übur.
Bu ticarət və sənaye yeridir
Yaşamaq hər kəsə olmuş məqdur.
Xəstələnsə kişi, fövrən sağalar,
Çünki hər kuçədə var yüz doxtur.
Bircə iş var ki, bazardan yuxarı,
Çıxma, çıxsan belə könlün tutulur.
Yenə it cəmdəyi, qursağ çürüyi,
Toyuğ, ördək başı dəhşət qoxuyor.
Ləngərud şəhri gəlir xatirinə,
İçəri şəhrə yağarsa yağmur.
Ləngərud çayını görsən də, o söz,
Şübhəyə düşmə, günahdır, hələ dur.
Sanma ki, orda da, xortdan yaşayır,
Dinli, imanlı müsəlman yaşayır.

*1926*

## ÇAXIR

Ey həsrəti yürəkləri al qan edən çaxır,
Qadını qız, qocaları oğlan edən çaxır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Naz etdigin zəmandə dərunində şişənin,
Zənnim budur, tapılmaya bir kimsə düşmənin,
Əzbəs ki, çox ləzzətlisən, ağrın alım sənin,
Dünyanı öz cəmalına heyran edən çaxır.

Görcək səni itib, dağılar fikr, əqlü huş,
Müştaqınam, gər olmasa kisəmdə bir quruş,
Od yağdırarsan, olsa yanında xuruş-muruş,
Ey gündə bir bəla törədib qan edən çaxır.

Hər kəs ki, istəsə oxusun eşq hekayətin,
Xəlvətcə yalvarıb sana, eylər şikayətin,
Bişəkkü şübhə dəf edəcəkdir kəsalətin,
Müşkülləri zəmanədə asan edən çaxır.

Çox müşkül işdə hər kəs edibdir rica sənə,
Gördükcə şəstini demişəm “mərhəba” sənə,
Ad qoymuşam, çaxır nədü, müşkülgüşa sənə,
Həm topdağıtmaz evləri viran edən çaxır.
Gər çıxsa nuri göglərə ədlin-ədalətin,
Olmaz əlacı səndə olan bari-töhmətin,
Aqil olan unutmaz adın, həm şücaətin,
Ey gizli-gizli dərdlərə dərman olan çaxır.

*1926*

## "ARİF, BANA BAN!"



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Arifi bidəmağ edər,
Türklərin istiqaməti.
Rəfaqəti, sədaqəti,
Ədavəti, şücaəti.
Adından əski Təbrizin,
Vurur başa bəxaləti,
Düşəndə yadına onun,
Keçən zaman hekayəti
Ki, tac-təxti yıxdılar,
Yaxır oni ədavəti.
Həmişə nəş'əsin pozur,
Bu millətin məharəti.
Həşişlə nəş'ələnməyir,
Daha mizaci arifin,
Vurur başına, bögrinə,
Nədir əlaci arifin.
Salanda yadə hər zəman,
Bu şair əski Təbrizi,
Gözində yıldırım çaxar,
Bu dağ kibi əsər dizi.
İlan zəhərli olsa da,
Ölər görəndə yıldızi,
O şairin bu haləti,
Dedikcə güldirir bizi.
Balam, ay arif, ağlama,
Sıxıb dərdimiz sizi,
Xilafi-şər' olur isə,
Yadında saxla bu sözi.
Ərəqlə vur şərabini,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Unutma çərk, tiryaki,
Girərmi türk hesabına,
Nə qədr ola sənin təki.
Gəlir səsi qulağıma,
Sən açdığın qurultayın,
İnanmıram ki, xeyr edə,
Sənin o yersiz hay-huyun.
Kəsərmi gün qabağını
Sən, əlli min sənin tayın,
Oxun süpürgədir, balam,
Həsir ipi olub yayın.
Nə "şairi-şəhir"sən
Ki, oldi gülgilər payın,
Otur, dəmaği saz elə,
Odun sönər, soyur çayın.
Tut əldə nazlı hoqqanı,
Sovur dəmaği çağ elə,
Yazıqsan, əhməq işləri,
Xəyaldən iraq elə.
Bu gün şəhri-Şərqdə
Göründi mehri-mə'rifət,
Uzaq burax cəhaləti,
Get, ondan istifadə et.
Bu fars-türk söhbətin,
Nədir bu gic müvazinət,
Xəyalə uyma, fikrə dal,
Degil bu şivə məsləhət.
Ərəq, həşiş, bəngdən,
Bacarsan, et məfariqət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəxalət alçaq işdir, et
O çirkinə müqavimət.
Ayıl, ucal, cəhanə bax,
Gözün cəhani görməyir,
Görür həsəd qaranlığın,
İşıq səmanı görməyir.

*1926*

## BULVAR QƏHRƏMANLARI

Cəvanlar, ortalar artıq ayıqlanmış, ziyalənmış,
Gözüm görcək işıqlanmış, sınıq könlüm səfalənmiş.

Əsayi-zərnigar əldə, başında bir həsir qalpaq,
Kraxmal həlqə boynunda, libası həməsindən ağ,
Bığı, birçəkləri rəngli, uzaqdan parlayır dırnaq,
Kəsafətdən əsər yoxdur, sınıq könlüm səfalənmiş,
Gözüm görcək işıqlanmış, cəhalət intəhalənmiş.

Günüz baqqal dükanında satan kartof, soğanın gör,
Gecə get restoranlarda şərabın, istəkanın gör,
Oturmuş sağ cinağında o yari-mehribanın gör...
Çopur qulluğçi Varvara necə gör məhliqalənmiş,
Cəvanlar, ortalar artıq ayıqlanmış, ziyalənmiş.

Nə yapsın, xəstədir evdə həm arvad, həm də övladı,
Əlacə, doktora pul yox, sızıldar-ağlar arvadı,
Gərək bir yanda şad etsin zəvallı qəlbi-naşadı,
Odur Marquşanı tapmış, gəzib bir az səfalanmış,
Cəvanlar, ortalar artıq ayıqlanmış, ziyalənmiş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kəbabın ertədən satmış, gedib "qulat" eylər,
Qolunda bir çuqun saət, yanında bir gözəl dilbər,
Dedikcə nərmü nazikdir bütün gün pul yumuş əllər,
Kəbabçı dostumuz öpmüş əlindən, o həyalənmiş,
Gözüm görcək işıqlanmış, sınıq könlüm səfalənmiş.

Eşitdim sən də, xərrazi, taza meydanə girmişsən,
Tapıb bulvarda bir canan, onunla iş bitirmişsən,
O dermiş "ya tebe lublu", başın sən tərpədirmişsən,
Nə bicsən, bu "mə'sum" qız səninlə aşinalənmiş,
Gözüm görcək işıqlanmış, sınıq könlüm səfalənmiş.

Bu il də keçdi oğlum, cəhənnəm, canı sağ olsun,
Nə çoxdur doktur, indi qoy gedib hər gün qonaq olsun.
Yanında bir ustulda şərab olsun, əraq olsun,
Xanımla qol-boyun görcək, dedim, vallah, zəkalənmiş,
Gözüm görcək işıqlanmış, sınıq könlüm səfalənmiş.

Dedikcə dərsə mayıldır, vəli, dövranə bin lə'nət,
Yaratmış mah peykərlər, buraxmış şəhrə bir ziynət.
Məhəmməd ümməti şiə yararmı, etməsin işrət?
Oni istər gözəllər də, nə yapsın, macəralənmiş,
Cəvanlar, ortalar artıq ayıqlanmış, ziyalənmiş.

*1926*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# MÜNDƏRİCAT



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ön 3
söz............................................................ 5
............. 7
Səməd 7
Mənsur....................................................... 8
...... 8
Taziyanə.................................................... 10
................... 11
Vahidə 12
ithaf............................................................ 13
...... 15
Qəzəl......................................................... 16
................... 17
Həpsi 17
rəngdir....................................................... 18
......... 19
Söz............................................................ 20
................... 22
"Şahnamə"dən............................................ 23
.................. 24
İranda məclis 25
seçkisi................................................... 26
Əksi-şahanə. Firdovsinin “Şahnamə”sindən 28
…………... 29
Qələmimə 31
bənzətmə.................................................... 32
. 33
Vahid Rusiyaya 34
ithaf................................................... 36
Güzgü........................................................ 37

................... 38
Firqələrə.................................................... 39
................... 40
Cavan 41
doktorlarıq................................................... 43
.......
Cavan
həkimlərimizə...............................................
.......
Füzuliyə
nəzirə.........................................................
....
Qaçmaq
günüdür......................................................
Created by Neevia Personal Converter trial version http://www.neevia.com
komisara.............................

Müsəlman 44
ustası........................................................ 45
. 46
Bir möminin avropalıya 48
xitabı....................................... 49
İnşallah..................................................... 50
.................. 51
Yolka bayramından məhrum olanlara 52
töhfə................... 53
Balaxanı mənəm-mənəm deyənlərinə 54
töhfeyi-əbədi....... 55
Müsahibə.................................................. 57
.................. 58
Balaxanədən.............................................. 61
................. 62
O nədir? 63
.................................................................. 64
.... 66
Loqarno.....................................................
..................
Yaşasın......................................................
.................
Ya Şeyx!
..................................................................
....
"Balıq Allah" və onun
bəndələri.....................................
Birinin bayramı, birinin
matəmi.......................................
Yaz
fəsli...........................................................
...........
İki
şəhər…......................................................
.............
Çaxır..........................................................
.................
"Arif, bana ban!"
...........................................................
Bulvar
qəhrəmanları..............................................
.......



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

***SƏMƏD MƏNSUR***



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# BİRİNİN BAYRAMI,
# BİRİNİN MATƏMİ

Bakı – Nurlan – 2003



Created by Neevia Personal Converter trial version http://www.neevia.com